Rəsmi dövlət qəzeti

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 32 (8055) ŞƏNBƏ, 9 fevral 2019-cu il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az






# Prezident örnəyi

### Vətəndaşların müraciətlərinə operativ baxılması tərəqqiyə və sosial ədalətə böyük töhfə verir

Hər bir cəmiyyətin inkişafına və həm də sosial həmrəyliyinə yol açan əsas şərtlərdən biri insanların qayğılarına, onları narahat edən məsələlərə diqqətlə yanaşılmasıdır.

Bu sırada vətəndaşların dövlət strukturlarına olan müraciətlərinə çevik və ədalətli münasibətin ortaya qoyulması da olduqca vacibdir. Xüsusən söhbət sosial dövlətdən və ədalətli cəmiyyətdən gedirsə, burada vətəndaş müraciətlərinə yüksək diqqət olmalıdır. Çünki məhz bu kimi məsələlərin kökündə insanların dövlət orqanlarına inamının və etimadının formalaşması dayanır.

### Müraciət hüququ tam təmin olunur

Vətəndaşların müraciətlərinə baxılması Azərbaycan Respublikası Konstitusiyası ilə təsbit olunmuş insan və vətəndaş hüquq və azadlıqlarının həyata keçirilməsi və müdafiəsi sahəsində dövlət orqanlarının qarşısında qoyulmuş vəzifələrdən biridir. Azərbaycan Respublikası Konstitusiyasının 57-ci maddəsinin birinci hissəsinə əsasən Azərbaycan Respublikası vətəndaşlarının dövlət orqanlarına şəxsən müraciət etmək, habelə fərdi və kollektiv yazılı müraciətlər göndərmək hüququ var.

Dövlət hakimiyyəti orqanları, idarə, təşkilat və müəssisələrin rəhbərləri və digər vəzifəli şəxslər vətəndaşların qəbul edilməsinin təşkilini təmin etməlidirlər. Hər bir müraciətə qanunla müəyyən edilmiş qaydada və müddətlərdə yazılı cavab verilməlidir.

Ardı 2-ci səh.

## İlham Əliyev xalqa layiqli xidmətin ən mükəmməl nümunəsini yaradıb

**“Xalqa xidmət etmək mənim ən böyük vəzifəmdir, bu, mənim borcumdur”.**

**2003-cü ildən - ölkə rəhbəri kimi fəaliyyətə başladığı dövrdən xalqın marağını hər şeydən üstün tutan, xoşniyyətli əməlləri, imzaladığı fərman və sərəncamları, praqmatik qərarları ilə hər bir Azərbaycan vətəndaşının Prezidenti olduğunu təsdiqləyən İlham Əliyev iki gün öncə fəaliyyətinin əsas qayəsinin xalqa və dövlətə layiqli xidmət prinsipi üzərində qurulduğunu bir daha sübuta yetirdi.**

Şimal bölgəsində baş verən zəlzələnin fəsadlarının tez bir zamanda aradan qaldırılması ilə bağlı ciddi göstəriş verən ölkə lideri səhəri gün Şamaxıya gedərək evləri qəzalı vəziyyətdə olan insanlara baş çəkməsi ilə zəlzələnin həyəcanını yaşayanlara təskinlik verdi, onları mənəvi cəhətdən ovundurdu.

### Xalqın etimadını qazanan lider

Vətəndaşlarla birbaşa təmaslara üstünlük verən, özünəməxsus təmkin və həssaslıqla onların problemlərini dinləyən və dərhal həlli üçün qəti tapşırıqlar verən İlham Əliyevin bu addımı da ölkə ictimaiyyəti tərəfindən yüksək qiymətləndirildi. Bu, xalqın Prezidentinə olan etimadını daha da artırdı.

Ardı 2-ci səh.

## Minimum aylıq əməkhaqqının artırılması və “Minimum aylıq əməkhaqqının artırılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 25 dekabr tarixli 3545 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Minimum aylıq əməkhaqqının məbləği 2019-cu il martın 1-dən 180 manat müəyyən edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin aktları ilə müəyyən olunmuş dövlət büdcəsindən maliyyələşdirilən sahələrdə çalışan işçilərin aylıq tarif (vəzifə) maaşlarının məbləğlərini bir ay müddətində bu sərəncamın 1-ci hissəsinə uyğunlaşdırsın;

2.2. Azərbaycan Respublikası Prezidentinin aktları ilə müəyyən olunmuş dövlət büdcəsindən maliyyələşdirilən sahələrdə çalışan işçilərin aylıq tarif (vəzifə) maaşlarının məbləğlərinin bu sərəncamın 1-ci hissəsinə uyğunlaşdırılması ilə bağlı təkliflərini bir ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

2.3. bu sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

3. “Minimum aylıq əməkhaqqının artırılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 25 dekabr tarixli 3545 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, №12, maddə 2460) 1-ci hissəsi ləğv edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 8 fevral 2019-cu il*

## Sosial Tədqiqatlar Mərkəzinin yaradılması haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, ictimai əhəmiyyətli məsələlərin araşdırılması və ictimai rəyin öyrənilməsi üçün əlavə vasitə yaratmaq, bu sahədə təhlil, tədqiqat və proqnozlaşdırma işinin səmərəliliyini artırmaq, sosial tədqiqatlarda müasir informasiya texnologiyalarından və qabaqcıl elmi-metodoloji yanaşmalardan istifadəni genişləndirmək məqsədi ilə **qərara alıram:**

1. Sosial Tədqiqatlar Mərkəzi yaradılsın.

2. Müəyyən edilsin ki, Sosial Tədqiqatlar Mərkəzi (bundan sonra - Mərkəz) ictimai münasibətlərin inkişaf dinamikasını sistemli təhlil edən, bu sahədə mövcud tendensiyaları müəyyənləşdirən və dəyişiklikləri proqnozlaşdıran, həmin dəyişikliklərin cəmiyyətə mümkün təsirlərini araşdıran, müasir informasiya texnologiyaları və elmi yanaşmalar tətbiq edilməklə ictimai fikrin öyrənilməsini və sosial tədqiqatlar aparılmasını təmin edən, həyata keçirdiyi elmi-analitik təhlilin nəticələrini dövlət orqanlarına təqdim edən publik hüquqi şəxsdir.

3. Azərbaycan Respublikası Prezidentinin Administrasiyası Mərkəzin nizamnaməsinin layihəsini iki ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

4.1. Azərbaycan Respublikası Prezidentinin aktlarının bu fərmana uyğunlaşdırılması ilə bağlı təkliflərini iki ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

4.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu fərmana uyğunlaşdırılmasını iki ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

4.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu fərmana uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə üç ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

4.4. bu fərmandan irəli gələn digər məsələləri həll etsin.

5. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu fərmana uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 8 fevral 2019-cu il*

## İsmayıllı rayonunun Muğanlı-İsmayıllı (30 km)-Təzəkənd-Ağbulaq-Qoşakənd avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Üç min nəfər əhalinin yaşadığı 3 yaşayış məntəqəsini birləşdirən Muğanlı-İsmayıllı (30 km)-Təzəkənd-Ağbulaq-Qoşakənd avtomobil yolunun tikintisi məqsədilə Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsinin dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə avtomobil yollarının tikintisi və yenidən qurulması üçün nəzərdə tutulmuş vəsaitin 3,8 milyon (üç milyon səkkiz yüz min) manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 8 fevral 2019-cu il*

# Dövlətin siyasətinin mərkəzində vətəndaşın rifahı dayanır

### Minimum əməkhaqqının artırılması buna daha bir misaldır

Prezident İlham Əliyev Minimum aylıq əməkhaqqının artırılması və “Minimum aylıq əməkhaqqının artırılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 25 dekabr tarixli sərəncamında dəyişiklik edilməsi barədə sərəncam imzalayıb. Sərəncama əsasən, minimum aylıq əməkhaqqının məbləği 2019-cu il martın 1-dən 180 manat müəyyən edilib. Bu, dövlətin Azərbaycan vətəndaşına diqqət və qayğısının daha bir nümunəsidir.

Prezident İlham Əliyev ölkə vətəndaşlarının rifahının yüksəldilməsinin daim dövlətin siyasətinin mərkəzində dayandığını vurğulayır və bu, əməli işlər və tədbirlərlə təsdiq olunur. Ölkədə yeni-yeni müəssisələrin açılması, çoxsaylı iş yerlərinin yaradılması, sosial infrastrukturun genişləndirilməsi insanlara qayğının davamlı olduğunu göstərir. Regionların sosial-iqtisadi inkişafına yönəldilmiş üç dövlət proqramının müvəffəqiyyətlə yerinə yetirilməsi nəticəsində Azərbaycanın rayon və kəndlərinin siması gözəlləşmiş, əyalətdə yaşayan insanların güzəranı xeyli yaxşılaşdırılmışdır.

Son 15 il ərzində ölkədə 2 milyon yeni iş yeri açılmışdır. Bu iş yerlərinin böyük hissəsi bölgələrin payına düşür. Azərbaycanın qazandığı bütün iqtisadi göstəricilər deməyə əsas verir ki, ölkəmiz uğurla, inamla inkişaf edib və bu, özünü ilk növbədə əhalinin rifah halının yaxşılaşmasında göstərir.

Davamlı olan iqtisadi inkişaf sosial məsələlərə böyük diqqət yetirməyə imkan yaradır. Son 15 il ərzində əməkhaqqı 7 dəfə , pensiyalar isə 9 dəfə artıb. Ölkədə 3 min 200-dən çox məktəb əsaslı təmir edilib və yenidən tikilib, 640 tibb müəssisəsi inşa edilib və yenidən qurulub. Bu cür faktların siyahısını xeyli artırmaq mümkündür. Bunlar şərhə ehtiyacı olmayan faktlardır. Bütün bunlar dövlətin siyasətinin



sosialyönümlü olduğunun aydın təzahürüdür və əldə edilmiş nailiyyətlərin ilk növbədə sosial sahəyə yönəldiyini təsdiqləyir.

Təsadüfi deyil ki, regionların 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrasının yekunlarına həsr olunan konfransda dövlət başçısı ölkəmizdə sosial sahənin daim diqqət mərkəzində saxlanıldığını bir daha qeyd etmişdir: “Məcburi köçkünlərin problemləri həmişə diqqət mərkəzində olmuşdur, bu gün də belədir. Son illər ərzində yüzdən çox köçkün şəhərciyi tikilib, köçkünlərə təqdim edilib. Şəhid ailələri, müharibə veteranları, müharibə əlilləri üçün 6650 mənzil təqdim edilmişdir və bu proses davam etdirilir. Bu kateqoriyadan olan vətəndaşlar evlərlə təmin olunacaqlar. Yəni, Azərbaycan sosial sahəyə çox böyük diqqət göstərən ölkədir. Biz ölkəmizdə bazar iqtisadiyyatı prinsiplərini sosial ədalət prinsipləri ilə birləşdirə bildik və hesab edirəm ki, Azərbaycanın uğurlu inkişafı məhz buna söykənir”.

Vətəndaşa qayğıdan danışarkən keçən il aprelin 11-də keçirilən prezident seçkilərindən sonra dövlət başçısı İlham Əliyevin imzaladığı ilk fərmanı da mütləq yada salmaq lazımdır. “Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda həlak olmuş, ölmüş və hərbi əməliyyatlarla əlaqədar xəbərsiz itkin düşdüyünə görə ölmüş elan edilmiş hərbi qulluqçuların ailə üzvlərinin sosial müdafiəsinin yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında” fərmana əsasən, qeyd olunan şəhid hərbi qulluqçuların vərəsələrinə 11 min manat məbləğində birdəfəlik ödəmələrin verilməsi nəzərdə tutulub. Artıq ödəmə prosesi də həyata keçirilir. Belə ki, indiyədək 3100 şəhid hərbi qulluqçunun vərəsələri həmin məbləği alıb. Ödənişlər davam edir.

Bir sözlə, yaşından, peşəsindən, vəzifəsindən, şəhərdə, yaxud kənddə yaşamasından asılı olmayaraq hər bir vətəndaş dövlətin qayğısının əhatəsindədir. “Mən hər bir azərbaycanlının Prezidentiyəm” deyən cənab İlham Əliyev bunu əməli tədbirlərlə, yeni sərəncam və fərmanlarla təsdiq edir. Dövlət başçısının minimum əməkhaqqının artırılması barədə sərəncamı da deyilənlərə daha bir misaldır.

***Flora SADIQLI,***
***“Azərbaycan”***

# BÖYÜK DAYAQ

## İlham Əliyev xalqa layiqli xidmətin ən mükəmməl nümunəsini yaradıb



Əvvəli 1-ci səh.

Hər zaman xalqın həm xoş, həm də dar günündə yanında olan Prezident Şamaxıya səfəri ilə bir daha insanlarda ruh yüksəkliyi yaratdı. Dövlət başçısının zəlzələ zamanı evi yararsız və ya qəzalı duruma düşmüş sakinlərlə səmimi söhbəti və verdiyi söz onlarda nikbinlik yaratdı: "Narahat olmayın, tez bir zamanda yeni ev tikiləcək... belə hadisə baş verəndə mən mütləq burada, yanınızda olmalı idim ki, ilk növbədə sizə öz dəstəyimi göstərim, digər tərəfdən, vəziyyətlə tanış olum. Dağıntılar var, xoşbəxtlikdən insan ölümü olmayıb. Onu da bildirməliyəm ki, bütün qəzalı evlər qısa müddət ərzində ya bərpa ediləcək, ya da yenidən tikiləcək".

Bu fikirlər həqiqətən insanlara mənəvi dəstək verdi. Onlarda bir daha əminlik yarandı ki, evləri yenidən bərpa olunacaq və ya yenisi tikiləcək. Prezidentin tapşırığı vaxtında icra olunacaq. Çünki hər bir kəs ölkəmizdə baş verən təbii fəlakətlər, partlayışlar, cəbhəyanı ərazilərdə erməni silahlı birləşmələrinin dinc əhaliyə qarşı həyata keçirdiyi silahlı təxribatlar zamanı dövlət başçısının dərhal həmin əraziyə səfər edərək insanlarla görüşdüyünü, tapşırıqlar verdiyinin şahididir.

### Hər zaman vətəndaşın yanında

Dünyada elə bir dövlət başçısı yoxdur ki, insanlarla bu qədər yaxın təmasda, səmimi görüşlərdə olsun, qocalara, uşaqlara, kimsəsizlərə yardım etsin. Saysız-hesabsız görüşləri, insanları səbirlə dinləməsi, onların hər bir məsləhətlərini, arzu və təkliflərini nəzərə alması İlham Əliyevin həqiqətən hər bir azərbaycanlının sevimli Prezidenti olmasından xəbər verir.

2004-cü ildə Lənkəran şəhərində yaşayış binasının uçması zamanı zərərçəkənlərə, 2005-ci ildə metronun "İçərişəhər" stansiyasının eskalatorundakı nasazlıq üzündən ciddi xəsarətlər almış vətəndaşlara, eləcə də həmin ilin dekabrında təyyarə qəzasında həlak olanların yaxınlarına və yaralananlara zəruri yardımların edilməsi, 2007-ci ildə Yasamal rayonu ərazisində Murtuza Muxtarov və Məhəmməd Naxçıvani küçələrinin kəsişməsində çoxsaylı insan tələfatı ilə nəticələnən hündürmərtəbəli binanın uçması, 2010-cu ilin may ayında Sabirabad və Saatlı rayonlarında Kür çayında suyun miqdarının normadan xeyli artması nəticəsində yaranan ciddi problemlərin aradan qaldırılması, 2012-ci ildə şimal-qərb bölgəsində baş verən zəlzələ zamanı ciddi tapşırıqlar verməsi və dərhal hadisə yerinə baş çəkərək insanların yanında olması deyilənləri bir daha təsdiqləyir.

### Sizinlə qürur duyuruq, cənab Prezident!

Elə bu dəfə də Prezidentin zəlzələdən zərər çəkmiş bölgənin sakinləri ilə görüşmək və təbii fəlakətin nəticələrinin aradan qaldırılması ilə bağlı görülən tədbirlərlə yerində tanış olmaq üçün Şamaxıya səfəri göstərdi ki, hər bir məsələ dövlət başçısının şəxsən nəzarəti altındadır.

İkimərtəbəli, beşotaqlı evin iki otağı tamamilə dağılan evin sakini ağbirçək ananın İlham Əliyevə etdiyi alqış isə xalqın dövlət rəhbərinə olan ən səmimi təzahürü idi:

- *"Allah Sizi var eləsin. Çox sağ olun, Sizdən çox razıyıq... Allah o bir oğlunuzu gözünüzə çıraq eləsin. Nə yaxşı ki, varsınız. Biz Sizinlə qürur duyuruq".*

Evləri qəzalı vəziyyətə düşən sakinlərlə söhbət zamanı da İlham Əliyevin hər zaman xalqın dayağı, güvənc yeri olduğu təsdiqini tapdı. İnsanlar hər zaman dövlət başçısına güvəndiklərini və onun yanında olduqlarını bəyan etdilər:

- *Dar gündə dadımıza çatdınız. Allah canınızı sağ eləsin. Sizin gələcəyinizə inanırdıq. Çünki həmişə xalqının ağır günündə onun yanında olan, xalqına dəstək olan Prezidentin bu təbii fəlakət zamanı şamaxılıların yanında olacağına çox-çox inanırdıq. Nə yaxşı ki varsınız. Xalqa göstərdiyiniz dəstəyə, köməyə görə Sizə həmişə minnətdarıq, çox sağ olun deyirik. Nə yaxşı ki bizim Prezidentimizsiniz. Biz Sizinlə fəxr edirik. Həmişə Sizin yanınızdayıq. Həmişə Sizə inanırıq. Azərbaycanın gələcəyinin etibarlı əldə olduğuna inanırıq və biz bunu görürük. Bu gün bir daha bunun sübutudur. Çox sağ olun ki, gəlmisiniz.*

*Biz Sizə arxalanırıq. Xalqı bu qədər sevirsiniz. Sağ olun ki, xalqa bu qədər dəstəksiniz. Dəstəyinizə görə minnətdarıq. Prezidentimizin belə qayğıkeşliyi, xalqa xidməti ilə çox qürur duyuruq. Azərbaycan etibarlı əllərdədir.*

Dövlətin hər zaman vətəndaşın yanında olduğunu deyən İlham Əliyev isə Prezidentin Ehtiyat Fondundan vəsait ayrılacağını, tezliklə çətinliklərin aradan qaldırılacağını vurğuladı. Sakinlər də bir daha əmin oldular ki, Prezidentin diqqət və qayğısı nəticəsində tezliklə zəlzələnin nəticələri aradan qaldırılacaq, uçmuş evləri bərpa ediləcək, mənzil şəraitləri əvvəlkindən də yüksək səviyyədə təmin olunacaq.

### Prezident xalqına, xalq isə öz liderinə güvənir

Bakıya dönən kimi dövlət başçısı baş vermiş təbii fəlakətin nəticələrinin aradan qaldırılması tədbirləri ilə bağlı sərəncam imzalayaraq Prezidentin Ehtiyat Fondundan 2 milyon manat vəsait ayırdı.

Göründüyü kimi, Prezident xalqına, xalq isə öz liderinə inanır və ölkə rəhbərliyi hər bir addımını xalqın mənafeyinə uyğun olaraq atır. Sadəliyi, səmimiliyi, milli təəssübkeşliyi, xalqına sədaqəti, insanlara canyanğısı İlham Əliyevə ümumxalq sevgisi qazandırıb. Azərbaycanı tarixinin ən qüdrətli dövlətinə çevirən ölkənin xoşbəxt gələcəyinin ən layiqli təminatçısı, qarantı olan cənab İlham Əliyevə xalqın etibarı böyükdür. Hər kəs əmindir ki, Azərbaycan onunla daha böyük zəfərlər qazanacaq.

**Rəşad BAXŞƏLİYEV,**
**"Azərbaycan"**

# Prezidentin Şamaxıya gəlməsi insanlarda ruh yüksəkliyi yaradıb

## Onlar dar günlərində ölkə rəhbərinin yanlarında olmasını və verdiyi dəstəyi heç zaman unutmayacaqlar

Qədim Şamaxı torpağına bizi bu dəfə çəkib gətirən təbii fəlakət - zəlzələ idi. Baş verənləri yerindəcə görmək, dağıntıları fotokameranın yaddaşına köçürmək və sakinlərin təəssüratlarını bölüşmək istədik.













Fevral ayı olmasına baxmayaraq, hava günəşli idi. Digər tərəfdən də küçədə olan insanların çöhrələrində bir arxayınlıq duyulmaqdaydı. Bir gün əvvəl dövlət başçısı İlham Əliyevin insanların ən ağır, ən həyəcanlı günlərində yanlarında olması, qəzalı vəziyyətə düşən evləri bir-bir gəzməsi onların gələcəyə olan inamlarını xeyli artırmışdı.

Əvvəlcə Fövqəladə Hallar Nazirliyinin məsul işçisi Kamran Əliyevlə görüşdük. O, hadisə baş verəndən sonra zəlzələnin törətdiyi fəsadların aradan qaldırılması ilə bağlı komissiyanın təşkil olunduğunu bildirdi. Dediyinə görə, ötən günlər ərzində evində dağıntılar baş verən insanlardan komissiyaya çoxlu sayda müraciətlər daxil olub. Komissiya üzvləri həmin müraciətləri yerində araşdırırlar. Rayon icra hakimiyyətində təşkil olunmuş qərargahda yekdil rəy əsasında qəzalı vəziyyətdə olan evlərdən təmir və ya yenidən tikilməsi ilə bağlı qərar verilir. İndiki halda isə hələlik 29 evin qəzalı vəziyyətdə olması rəsmiləşdirilib. Qalanları ilə bağlı bütün müraciətlərə baxıldıqdan sonra qərar qəbul ediləcək. Hazırda tikinti şirkəti rəsmiləşdirilmiş qəzalı binaların söküntü işlərinə başlayıb.

Sonra qəzalı vəziyyətdə olan evlərə baş çəkirik. Onlardan birincisi Prezident İlham Əliyevin də həyətində görüşdüyü 95 yaşlı Şamaxı şəhər sakini Saray Eyvazovadır. Oğlu, gəlini və nəvələri ilə birlikdə yaşayan Saray nənə həyatın hər üzünü gördüyünü, ömrü boyu zəhmətlə yaşadığını deyir. Əsas işi üzümçülük olub. İşinin çoxluğuna baxmayaraq, 8 övlad böyüdüb. Bildirdiyinə görə, evin bir hissəsinin uçub dağılması onları xeyli kədərləndirib. Nə edəcəklərini, evi necə bərpa edəcəklərini düşünüblər. Lakin elə ilk saatlardan fövqəladə hallar naziri Kəmaləddin Heydərov və rayon icra hakimiyyətinin başçısı Tahir Məmmədovun hadisə yerinə gələrək təskinlik verməsi, köməklik göstəriləcəyi vədi onları xeyli rahatlaşdırıb.

Saray Eyvazova söhbətini davam etdirir: - Fevralın 7-də Prezident İlham Əliyevin həyətimizə daxil olması bizi xeyli həyəcanlandırdı. O, dar günümüzün sahibi kimi yanımızda idi. Doğrusu, biz onun gəlməsini çox da təəccüblə qarşılamadıq. Çünki bizim gördüyümüz, bildiyimiz odur ki, rəhmətlik Heydər Əliyev kimi onun oğlu da həmişə xalqın yanındadır. Ən çətin günlərdə insanların nicat yolu onların xeyirxahlığından keçib. Allahdan İlham Əliyevə və onun xanımına uzun ömür və əbədi cansağlığı diləyirəm. Xalqın yanında olan, sadə insanların xeyir-duasını alan rəhbərlər ulu yaradanın da yanında sevilənlərdən olar.

Saray nənənin oğlu Rasim zəlzələ baş verən anı belə xatırlayır: "Təxminən saat 12-yə qalmışdı. Mən həmin vaxt həyətdə, evin qarşısındakı mətbəxdə idim. Əvvəlcə yüngül silkələnmə hiss etdim. Lakin məndə təzyiq olduğu üçün, sadəcə, onunla əlaqələndirdim. Ancaq bu zaman uğultulu bir səs eşitdim. Sanki ev dağılıb yerlə bir olacaqdı. Qapını açıb çölə çıxmaq istəsəm də, bunu edə bilmədim və içəridə yerə yıxıldım. Səsimi ucaldıb həyat yoldaşıma içəridə qaldığımı, uşaqları və anamı tez bayıra çıxarmasını tapşırdım. Hamımız evdən çıxan zaman qaranlığa qərq olduq, həyətdə işıq söndüyü üçün göz-gözü görmürdü. Toz-duman bir-birinə qarışmışdı. Sonradan evin bir hissəsinin tamamilə çökdüyünü, divarların isə əksər yerlərdə çatladığını gördük. Prezident İlham Əliyev həyətimizə gəlib hər şeyi öz gözü ilə görəndən sonra xeyli rahatlaşdıq. Bilirik ki, Prezident bizi mütləq bu problemdən çıxaracaq".

Vidadi Məmmədov küçəsindəki 7 saylı evin sakini Mailə Quliyeva ilə də görüşdük. O, rayon polis şöbəsində xadimə işləyir. Dediyinə görə, zəlzələ zamanı nəvəsi də yanında olub və yatmağa hazırlaşırmışlar. İlk təkan ciddi olmasa da, sonrakı təkan zamanı çölə necə çıxdıqlarını özləri də bilməyiblər. İşığın sönməsi, qaranlıq çökməsi onların həyəcanını daha da artırıb. Sonradan evin arxa divarının xeyli hissəsinin dağıldığını görüblər.

Bütün olanlara baxmayaraq, Mailə xanım ölkə rəhbərinin birbaşa hadisə yerinə gəlməsini və onlara təskinlik verməsini minnətdarlıq hissi ilə qeyd etdi. Onun sözlərinə görə, artıq onlara evi boşaltması və burada söküntüyə başlanacağı deyilib.

Şəhərdən çıxıb zəlzələnin fəsadlarının çox olduğu kəndlərdən birinə - Əngəxəran kəndinə yol alırıq. Bələdçimiz Məlhəm kənd inzibati ərazi dairəsinin nümayəndəsi İsaxan Səmədovdur. Nümayəndəliyə Məlhəm və Əngəxəran kəndləri daxildir. İ.Səmədovun dediyinə görə, təbii fəlakət baş verəndən 10 dəqiqə sonra Əngəxəranda olub. Burada 3 evdə qəzalı vəziyyət yaranıb. Növbəti gün səhər fövqəladə hallar naziri və rayon icra hakimiyyətinin başçısı hadisə yerinə gəliblər. Fövqəladə hallar komissiyası bütün evlərə baxış keçirib və aktlar tərtib edib.

Əngəxəran kənd sakini Maxfirət Baxşiyeva ilə söhbətləşirik. Onun dedikləri: - Yatmağa hazırlaşırdıq. Birdən evin silkələnməsini hiss edib tez bayıra çıxdıq. Üstündən az keçməmiş qonşu evimizin bir tərəfinin uçduğunu dedi. Vallah başımızı əməlli-başlı itirmişdik. Evin uçması həyəcanımızı daha da artırmışdı. Lakin az keçməmiş kəndin icra nümayəndəsi, səhəri gün isə rayon rəhbərliyinin gəlməsi bizi sakitləşdirdi. İnanırıq ki, dövlətimiz bizim üçün indikindən də daha işıqlı və təhlükəsiz evlər tikəcək. Prezidentin bu işlər üçün vəsait ayırması bizi çox sevindirir.

Kamil Mehdiyev də Əngəxəran kənd sakinidir. Deyir ki, 5 nəfərdən ibarət ailə üzvləri ilə birlikdə evdə oturub televizora baxırmışlar. Birinci dəfə yüngül titrəyiş hiss ediblər. Lakin ikinci təkan daha güclü olub və bu anda işıqlar sönüb. Tələsik evi tərk ediblər. Hətta evin uçmasını da hiss etməyiblər. Bununla belə Kamil kişi kəndin icra nünayəndəsinin səhərə kimi yanlarında olduğunu dedi. Növbəti gün isə rayonun bütün icra strukturları onlara dəstək olublar.

Öyrəndik ki, təbii fəlakət baş verən zamandan başlayaraq rayonun mərkəzi xəstəxanası da gücləndirilmiş iş rejimində fəaliyyət göstərib. Mərkəzi xəstəxananın baş həkimi Səməd Fətəliyev bildirdi ki, rayonda olan həkim briqadaları ilə yanaşı, kəndlərdəki 34 həkim məntəqəsi də tam hazır vəziyyətə gətirilib. Xəstəxanaya təxminən 30 müraciət daxil olub. Həmin insanlar əsasən şəkərli diabet, hipertoniya və ürək işemiyası olanlardır. Bundan əlavə, 3 nəfər sınığı olan insanlar cərrahiyyə şöbəsinə müraciət edib. 1 nəfər isə həyəcandan nitq qabiliyyətini itirməsinə baxmayaraq, 8-10 saat ərzində səhhəti tamamilə normallaşıb. Artıq bütün xəstələr evə buraxılıb. Yalnız bir nəfər beyin silkələnməsi olan sakin müalicə alır. Onun da yaxın günlərdə evə buraxılması nəzərdə tutulur.

**Əli SƏLİMOV,**
**"Azərbaycan"**

# Prezident örnəyi

Əvvəli 1-ci səh.

Dövlət orqanları və onların vəzifəli şəxsləri müraciətdə irəli sürülən məsələlərin həlli, onların səlahiyyətinə aid olmadıqda bunları müvafiq təşkilata göndərməli və bu barədə müraciət edənə məlumat verməli, şəxsi qəbul zamanı isə hara müraciət etmək lazım olduğunu izah etməlidirlər.

Azərbaycanda vətəndaşların müraciətlərinə baxılmasının mükəmməl qanunvericilik bazası yaradılıb. Bu məsələ "Vətəndaşların müraciətləri haqqında", "Dövlət qulluğu haqqında", "Vətəndaşların hüquq və azadlıqlarını pozan qərar və hərəkətlərdən (hərəkətsizlikdən) məhkəməyə şikayət edilməsi haqqında", "Dövlət qulluqçularının etik davranış qaydaları haqqında" Azərbaycan Respublikasının qanunları ilə tənzimlənir.

### Çoxsaylı təşəkkür məktubları inkişafdan və qayğıdan xəbər verir

Bu günlərdə Prezident Administrasiyasının Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri Süleyman İsmayılovun "Azərbaycan" qəzetində dərc olunmuş "Prezident İlham Əliyevin vətəndaş müraciətlərinə münasibəti bütün məmurlara örnəkdir" başlıqlı məqaləsindən də göründüyü kimi, ölkə rəhbərinə ünvanlanan heç bir müraciət diqqətdən kənarda qalmır. Məqalədə qeyd olunur ki, vətəndaşların cəmiyyət qarşısında məsuliyyətinin və vətəndaşlıq mövqeyinin göstəricisi olan təkliflər həmişə böyük maraq doğurduğundan onlar ətraflı təhlil edilir, öyrənilir və məqsədəuyğun hesab edildikdə aidiyyəti qurumlarla birlikdə baxılır. Təkliflərin müxtəlif mövzuları əhatə etməsi vətəndaşların fəallığını, respublikada baş verən proseslərə, tarixi keçmişimizə və gələcəyimizə biganə qalmadıqlarını, bu proseslərdə yaxından iştirak etmək arzularını əks etdirir.

Məqalədən göründüyü kimi, Prezident Administrasiyasına ünvanlanan müraciətlərin əhatə dairəsi genişdir və bunların böyük bir hissəsini minnətdarlıq məktubları təşkil edir. 2018-ci ildə Prezident Administrasiyasına daxil olan minlərlə məktubda insanlar səmimi ürək sözlərini, sevinc və fərəh hislərini ifadə ediblər. Onlar ulu öndər Heydər Əliyevin müdrik siyasətinin uğurla davam etdirilməsindən, ölkəmizin sürətli inkişaf yolu ilə inamla irəliləməsindən, Azərbaycanın dünyada demokratik, qüdrətli, öz sözünü deməyə qadir olan ölkə kimi tanınmasından, ən müasir silahlarla və texnika ilə təchiz olunmuş orduya sahib olmasından fərəhləndiklərini və qürur duyduqlarını bildirirlər. Məktubların çoxunda vətəndaşlar xüsusi vurğulayırlar ki, həyata keçirilən uğurlu siyasətin müsbət nəticələrini bizdən sonrakı nəsillər də hiss edəcəklər. *"Azərbaycan Prezidentinin yorulmaz fəaliyyəti, ölkəsinin inkişafı, xalqının səadəti və xoşbəxtliyi üçün əzmlə çalışması, zamanla ayaqlaşan, gələcəyi görməyi, qiymətləndirməyi bacaran müdrik siyasi rəhbər kimi doğma vətənimizi daim irəli aparması Azərbaycan vətəndaşlarının və dünyada yaşayan soydaşlarımızın diqqətindən yayınmır və Prezident İlham Əliyevin ünvanına daxil olan minnətdarlıq məktublarında öz əksini tapır",* - deyə məqalədə qeyd olunur.

Ötən il bölgələrə çoxsaylı səfərlər edən Prezident İlham Əliyev daim vətəndaşların qayğıları ilə maraqlanıb. Cənab Prezident əhalinin aztəminatlı təbəqəsinin maddi rifahının gücləndirilməsinə, məşğulluğunun təmin edilməsinə, o cümlədən qaçqın və məcburi köçkünlərin, müharibə veteranlarının yaşayış şəraitinin yaxşılaşdırılmasına xüsusi diqqət yetirib. Dövlət qayğısını görən insanlar, təbiidir ki, ilk növbədə ölkə Prezidentinə minnətdarlıq duyğularını çatdırmağı özlərinə borc bilirlər. Məktublarda qeyd edilir ki, Azərbaycan ötən il böyük inkişaf yolu keçib, mühüm infrastruktur layihələrini başa çatdırıb, orbitə üçüncü peykini göndərib. Ötən il Azərbaycan Ordusu Naxçıvan istiqamətində uğurlu əməliyyat keçirərək 11 hektar əraziyə nəzarəti təmin edib.

Təbii ki, bütün bunları xalqımız görür və dövlət başçısına ünvanladıqları məktublarda vətəndaşların minnətdarlıq hisləri ifadə olunur.

Məktubların bir çoxunda vətəndaşlar ölkəmizin inkişafı və tərəqqisi yolunda cənab Prezidentlə çiyin-çiyinə çalışan, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın həm Birinci vitse-prezident, həm də Heydər Əliyev Fondunun prezidenti kimi gördüyü işləri, eyni zamanda, fondun vitse-prezidenti Leyla xanım Əliyevanın təşəbbüslərini yüksək dəyərləndirir, buna görə təşəkkürlərini bildirirlər.

Təşəkkür məktublarının çoxluğu və coğrafiyasının genişliyi, əksini tapan məsələlərin müxtəlifliyi görülən işlərin həcmindən və miqyasından xəbər verir. Hansı məsələni və regionu təmsil etməsindən asılı olmayaraq həmin məktubların əksəriyyətində vətəndaşlar öz ölkəsi və onun rəhbəri ilə fəxr etdiklərini xüsusi vurğulayırlar.

### Şikayətlər azalıb

2018-ci ildə Prezident Administrasiyasına daxil olmuş müraciətlərin 69 faizi ərizə, 30,7 faizi şikayət, 0,3 faizi təklifdir. 2017-ci illə müqayisədə şikayətlərin faizi azalmışdır.

Ümumiyyətlə isə ötən il daxil olan müraciətlərin ümumi sayı vətəndaşlar üçün vacib olan bir çox mövzular üzrə azalıb. Məqalədə qeyd olunur ki, bunlar dövlət quruculuğu və qanunvericilik, sənaye, iqtisadiyyat və sahibkarlığın inkişafı, korrupsiya ilə bağlı məsələlər, şəhər, rayon icra hakimiyyəti başçıları aparatlarının fəaliyyəti, kənd təsərrüfatı məsələləri, o cümlədən kənd təsərrüfatı üçün kreditlərin və torpaq sahələrinin ayrılması, subsidiyaların verilməsi, məhsulların tədarükü, emalı və satışı, meliorasiya və su təsərrüfatı məsələləri, habelə ipoteka və fərdi kreditlərin verilməsi, xaricdə təhsil, test imtahanları, təhsil haqqı və köçürmələr, diplomların verilməsi və tanınması, gənclik və idman, informasiya resursları və onların təhlükəsizliyi, ekologiya, yaşıllıqların və meşələrin mühafizəsi, müdafiə, orduya çağırış, hərbi qulluqçuların sosial müdafiəsi, əmək mübahisələri və işdən çıxarılma, əməkhaqqı, işlə təmin olunma, istilik təchizatı, elektrik sayğaclarının quraşdırılması, sosial mənzillə təmin olunma, fərdi yaşayış evlərinin qiymətləndirilməsi və kompensasiyaların verilməsi, qaçqınlar və məcburi köçkünlərlə bağlı məsələlər, yerli orqanlarda vətəndaşların qəbulu və müraciətlərə baxılması, miqrasiya və sair məsələlərdir.

Prezident İlham Əliyev vətəndaşların ərizə, şikayət və təkliflərinə qanunvericiliyə uyğun olaraq müəyyən edilmiş müddətlər ərzində və obyektiv baxılmasını, onların haqlı tələblərinin təmini istiqamətində zəruri tədbirlərin görülməsini bütün dövlət orqanları və dövlət məmurları qarşısında mühüm vəzifələrdən biri kimi qoymuşdur. Bu məsələyə daim toxunan dövlət başçısının əsas tələblərindən biri vətəndaşı narahat edən problemlərə həssaslıqla yanaşılmasıdır. Prezident bu sahədə özü məmurlara nümunə göstərir, respublikanın bütün bölgələrində, eləcə də Bakı şəhərində keçirilən tədbirlərdə vətəndaşların problemlərini öyrənir, onların həlli üçün konkret tapşırıqlar verir.

Məqalədə qeyd olunur ki, ötən il müraciətlərə baxılmasında nöqsanlara yol vermiş, yaxud vətəndaşları narahat edən problemlərin həllinə laqeyd yanaşmış, vəzifə öhdəliklərini vicdanla yerinə yetirməmiş vəzifəli şəxslər barədə intizam tənbehi tədbirləri də görülmüşdür. Belə ki, 2018-ci ildə mərkəzi icra hakimiyyəti orqanlarının vəzifəli şəxslərindən 860 nəfərinə töhmət və ya şiddətli töhmət verilmiş, 79 nəfərin əmək müqaviləsinə xitam verilmiş, 53 nəfər barəsində digər intizam tənbehi tədbiri görülmüş, 632 nəfərə xəbərdarlıq edilmişdir. Yerli icra hakimiyyəti orqanlarına gəlincə, ötən il burada 70 vəzifəli şəxs barəsində intizam tənbehi tədbiri görülmüşdür. Onların 57 nəfərinə töhmət və ya şiddətli töhmət verilmiş, 13 nəfərin əmək müqaviləsinə xitam verilmiş, həmçinin 270 nəfərə xəbərdarlıq edilmişdir.

"Prezident Administrasiyasına daxil olan müraciətlərin növlər üzrə öyrənilməsi onların daha ətraflı təhlilinə, mərkəzi və yerli icra hakimiyyəti orqanlarında, digər qurumlarda mövcud olan problemlər barədə dəqiq və düzgün məlumat əldə etməyə, həmin qurumların üzərinə düşən vəzifələri necə yerinə yetirdiyini təhlil etməyə, müvafiq nəticələr çıxarmağa imkan verir", - deyə yazan Süleyman İsmayılov məqalədə vətəndaş şikayətlərindən də söz açır. Şikayətlərin təhlili göstərir ki, bunlar əsasən biganəliyin, süründürməçiliyin nəticəsidir və vətəndaşların yerlərdə həll olunmalı problemlərinə laqeyd yanaşıldıqda onlar, təbiidir ki, yuxarı dövlət orqanlarına, o cümlədən Prezident Administrasiyasına müraciət etməli olurlar. Bununla belə, vətəndaşların öz hüquqlarını kifayət qədər dərindən bilməməsindən, hər vasitə ilə özünün haqlı olduğunu sübut etmək istəyindən irəli gələn əsassız şikayətlər də var.

Ümumiyyətlə, müraciətlərin kim tərəfindən və hansı mövzuda yazılmasından asılı olmayaraq, bu bir həqiqətdir ki, onlar cəmiyyətin döyünən nəbzidir və hər bir müraciətin arxasında insanın düşüncəsi, sevinci, yaxud narahatlığı dayanır, eyni zamanda müraciətlər yaranan problemlərin vaxtında aşkar edilərək aradan qaldırılmasına yol açır. Buna görə də müraciətlərə baxılmasına göstərilən xüsusi diqqət vətəndaşlara qayğı kimi qiymətləndirilir.

Əvvəldə qeyd olunduğu kimi, vətəndaşların müraciətlərinə diqqətlə yanaşılması ilk növbədə inkişafa və rifahın yüksəlməsinə xidmət edir. Sevindirici haldır ki, ölkədə bütün sahələrdə uğurla reallaşan dövlət siyasətinin nəticəsi olaraq Prezident Administrasiyasına ünvanlanan müraciətlərin məzmunu da dəyişir. Görünən odur ki, şikayətlərin sayı getdikcə azalır, Prezident İlham Əliyevə ünvanlanan minnətdarlıq məktublarının sayı isə sürətlə çoxalır.

**Rəşad CƏFƏRLİ,**
**"Azərbaycan"**

# Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 8 iyul tarixli 211 nömrəli Fərmanı ilə təsdiq edilmiş "ADA" Universitetinin Nizamnaməsi"ndə dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 8 iyul tarixli 211 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 7, maddə 793; 2017, № 5, maddələr 788, 802, № 7, maddə 1364) ilə təsdiq edilmiş "ADA" Universitetinin Nizamnaməsi"ndə aşağıdakı dəyişikliklər edilsin:

1.1. 1.3-cü bəndə "səviyyələri" sözündən sonra "və orta ixtisas təhsili" sözləri, ikinci halda "ali" sözündən sonra ", orta ixtisas" sözləri əlavə edilsin;

1.2. 2.1-ci bəndin ikinci cümləsinə "institutlar" sözündən sonra ", kolleclər" sözü əlavə edilsin;

1.3. 5.1.2-ci yarımbəndə "ali" sözündən sonra "və orta ixtisas" sözləri əlavə edilsin;

1.4. 5.2.1-ci yarımbənddən "üzrə üç səviyyədən ibarət" sözləri çıxarılsın və həmin bəndə "doktorantura" sözündən sonra ", habelə orta ixtisas təhsili üzrə" sözləri əlavə edilsin;

1.5. 5.5-ci bəndin birinci cümləsinə "magistratura" sözündən sonra ", habelə orta ixtisas" sözləri əlavə edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. Azərbaycan Respublikası Prezidentinin aktlarının bu fərmana uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu fərmana uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu fərmana uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.4. bu fərmandan irəli gələn digər məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu fərmana uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 7 fevral 2019-cu il*

# "ADA" Universitetinin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 13 yanvar tarixli 216 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "ADA" Universitetinin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 13 yanvar tarixli 216 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 1, maddə 29) 1-ci hissəsinə "səviyyələri" sözündən sonra "və orta ixtisas təhsili" sözləri, ikinci halda "ali" sözündən sonra ", orta ixtisas" sözləri əlavə edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 7 fevral 2019-cu il*

# Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 6 sentyabr tarixli 1592 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin Nizamnaməsi"ndə dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 6 sentyabr tarixli 1592 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 9, maddə 1639) ilə təsdiq edilmiş "İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin Nizamnaməsi"ndə aşağıdakı dəyişikliklər edilsin:

1.1. 2.2.1-ci yarımbənddə "vahid siyasətin" sözləri "dövlət siyasətinin" sözləri ilə əvəz edilsin;

1.2. 3.1.1-ci yarımbənddə "dövlət proqramlarının, strategiyalarının və inkişaf konsepsiyalarının" sözləri "qanunvericilik aktlarının, inkişaf konsepsiyalarının və məqsədli proqramların" sözləri ilə əvəz edilsin;

1.3. 3.1.12-ci yarımbəndə "edir" sözündən sonra ", peşəkar mütəxəssislərin hazırlanması və tədris proqramlarının tərtibi ilə bağlı təkliflər verir və onların həyata keçirilməsində iştirak edir" sözləri əlavə edilsin;

1.4. 3.1.14-cü yarımbənddə "orqanlarının" sözü "orqanları və qurumlarının, yerli özünüidarəetmə orqanlarının, hüquqi və fiziki şəxslərin" sözləri ilə əvəz edilsin;

1.5. aşağıdakı məzmunda 3.1.14-1-3.1.14-3-cü yarımbəndlər əlavə edilsin:

"3.1.14-1. icbari tibbi sığorta sahəsində elektron xidmətləri "Dövlət orqanlarının və Azərbaycan Respublikasının Prezidenti tərəfindən yaradılan publik hüquqi şəxslərin elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 23 may tarixli 429 nömrəli Fərmanına uyğun olaraq təşkil edir;

3.1.14-2. kargüzarlığı və vətəndaşların qəbulunu müvafiq normativ hüquqi aktların tələblərinə uyğun təşkil edir;

3.1.14-3. Agentlik əməkdaşlarının əlavə təhsili və peşəkarlığının yüksəldilməsi üçün tədbirlər görür;";

1.6. 3.1.16-cı bənd aşağıdakı redaksiyada verilsin:

"3.1.16. Azərbaycan Respublikasının beynəlxalq müqavilələri ilə tənzimlənən və Agentliyin səlahiyyətinə aid olan məsələlər üzrə Azərbaycan Respublikasının götürdüyü öhdəliklərin yerinə yetirilməsini təmin edir;";

1.7. aşağıdakı məzmunda 3.1.17-1-ci yarımbənd əlavə edilsin:

"3.1.17-1. icbari tibbi sığorta sahəsində inzibati xəta əlamətləri aşkar etdikdə, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə uyğun olaraq tədbirlər görür, cinayət əlamətləri olduqda isə aidiyyəti üzrə məlumat verir;";

1.8. aşağıdakı məzmunda 3.1.20-1-ci yarımbənd əlavə edilsin:

"3.1.20-1. qabaqcıl beynəlxalq təcrübəni nəzərə almaqla, icbari tibbi sığorta sahəsində elmi-texniki nailiyyətlərin tətbiqini təmin edir;";

1.9. 3.1.21-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

"3.1.21. Agentliyin fəaliyyəti ilə bağlı daxil olan müraciətlərə "Vətəndaşların müraciətləri haqqında", "İnzibati icraat haqqında" və "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq baxır və qanunla müəyyən edilmiş qaydada tədbirlər görür;";

1.10. 3.1.24-cü yarımbənddə "təminatını və onun təhlükəsizliyini təşkil" sözləri "təminatını təşkil edir və onun təhlükəsizliyini təmin" sözləri ilə əvəz edilsin;

1.11. 3.2.1-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

"3.2.1. icbari tibbi sığorta sahəsində normativ hüquqi aktın layihəsinin qəbul olunması, aktda dəyişiklik edilməsi, aktın şərh edilməsi, qüvvəsinin dayandırılması və ya ləğv edilməsi haqqında aidiyyəti üzrə təklif vermək;";

1.12. 3.2.2-ci yarımbənddə "təşəbbüslə çıxış etmək" sözləri "təkliflər vermək" sözləri ilə əvəz edilsin;

1.13. 3.2.3-cü yarımbənddə "beynəlxalq əlaqələr yaratmaq," sözləri "beynəlxalq təcrübənin tətbiqi imkanlarının araşdırılması məqsədilə" sözləri ilə əvəz edilsin;

1.14. 3.2.15-ci yarımbənddə "dövlət və" sözləri "dövlət orqanlarına və qurumlarına," sözləri ilə əvəz edilsin və həmin yarımbənddən "icbari tibbi sığorta sahəsi üzrə" sözləri çıxarılsın;

1.15. 3.2.16-cı yarımbənd aşağıdakı redaksiyada verilsin:

"3.2.16. müstəqil ekspertləri və mütəxəssisləri qanunvericiliklə müəyyən edilmiş qaydada öz fəaliyyətinə cəlb etmək;";

1.16. aşağıdakı məzmunda 3.2.16-1-ci yarımbənd əlavə edilsin:

"3.2.16-1. Agentliyin fəaliyyət istiqamətlərinə aid məsələlərlə bağlı araşdırmalar aparmaq, işçi qruplar və komissiyalar yaratmaq;";

1.17. 3.2.17-ci yarımbəndə "icbari tibbi sığorta sahəsində" sözlərindən sonra "rəy və təkliflər vermək, təhlillər, ümumiləşdirmələr və" sözləri əlavə edilsin;

1.18. aşağıdakı məzmunda 3.2.18-1-ci yarımbənd əlavə edilsin:

"3.2.18-1. əməkdaşlarını dövlət təltiflərinə və digər mükafatlara təqdim etmək, onların həvəsləndirilməsi üçün tədbirlər görmək;";

1.19. aşağıdakı məzmunda 3.2.22-1-ci yarımbənd əlavə edilsin:

"3.2.22-1. Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla, "Publik hüquqi şəxslər haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, icbari tibbi sığortanın həyata keçirilməsi ilə bağlı publik hüquqi şəxs yaratmaq, yenidən təşkil və ya ləğv etmək;";

1.20. 4.3-cü bəndin birinci cümləsinə "rəhbərliyi" sözündən əvvəl "ümumi" sözü əlavə edilsin və həmin bəndin üçüncü cümləsi çıxarılsın;

1.21. 4.4-cü bənddə "səlahiyyətlərinin icrası İdarə Heyətinin sədri tərəfindən təsdiq edilmiş vəzifə bölgüsünə əsasən həyata keçirilir" sözləri "səlahiyyətlərini İdarə Heyəti üzvləri arasından sədrin müəyyən etdiyi şəxs icra edir" sözləri ilə əvəz edilsin;

1.22. 4.5.1-ci yarımbəndə "Agentliyin" sözündən sonra "inkişaf istiqamətlərini," sözləri əlavə edilsin;

1.23. 4.5.2-ci yarımbəndə "sənədlər" sözündən sonra "(o cümlədən Agentliyin maliyyə hesabatını)" sözləri əlavə edilsin;

1.24. aşağıdakı məzmunda 4.5.2-1-ci yarımbənd əlavə edilsin:

"4.5.2-1. Agentliyin fəaliyyətini təşkil edir və ona nəzarət edir;";

1.25. 4.5.7-ci yarımbənddən "və onların icrasına nəzarət edir" sözləri çıxarılsın;

1.26. 4.5.8-ci yarımbənddə "yaradılmasına və ya onlarda iştirak etməyə, idarə, filial və nümayəndəliklərin yaradılmasına razılıq verilməsi üçün müraciət edir" sözləri "yaradılması və ya onlarda iştirak barədə, həmçinin Agentliyin idarə, filial və nümayəndəliklərinin yaradılması barədə qərar qəbul edir" sözləri ilə əvəz edilsin;

1.27. 4.5.9-cu yarımbənddə "və fəaliyyət" sözləri ", strateji məqsədlərinin və" sözləri ilə əvəz edilsin;

1.28. 4.5.10-cu yarımbəndə "əsasnamələrini" sözündən sonra ", törəmə təsərrüfat cəmiyyətlərinin nizamnamələrini" sözləri əlavə edilsin;

1.29. 4.5.11-ci yarımbənd üzrə:

1.29.1. 1-ci abzasa "Agentliyinin" sözündən sonra ", habelə "Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi" (bundan sonra - TƏBİB) publik hüquqi şəxsin" sözləri əlavə edilsin;

1.29.2. 2-ci abzasa "Agentlikdə" sözündən sonra ", habelə TƏBİB-də" sözləri, "formalarını" sözündən sonra ", əməkhaqqı fondunu" sözləri əlavə edilsin;

1.29.3. 3-cü abzasa "Agentliyin" sözündən sonra ", habelə TƏBİB-in" sözləri əlavə edilsin;

1.30. aşağıdakı məzmunda 4.5.11-1-ci və 4.5.11-2-ci yarımbəndlər əlavə edilsin:

"4.5.11-1. Agentliyin əldə etdiyi vəsait (dövlət büdcəsindən, habelə İcbari Tibbi Sığorta Fondundan başqa dövlətə məxsus digər fondlardan ayrılan vəsait istisna olmaqla) hesabına işçilərə əlavə ödənilən həvəsləndirmə sistemini müəyyənləşdirir;

4.5.11-2. Agentliyin daxili audit bölməsinin fəaliyyətinə nəzarət edir və fəaliyyətinə dair hesabatlar alır, habelə onun üzvlərini vəzifəyə təyin və vəzifədən azad edir;";

1.31. 4.5.13-cü yarımbənddə "habelə publik hüquqi şəxsə aidiyyəti olan şəxslərlə əqdin (əqdin dəyəri aktivlərin 5 faiz və daha çox hissəsini təşkil etdikdə) bağlanmasına razılıq verilməsi üçün müraciət edir" sözləri "və aidiyyəti şəxslə dəyəri Agentliyin aktivlərinin 5 faizini və daha çox hissəsini təşkil edən əqdin bağlanması haqqında qərar qəbul edir" sözləri ilə əvəz edilsin;

1.32. aşağıdakı məzmunda 4.5.20-ci və 4.5.21-ci yarımbəndlər əlavə edilsin:

"4.5.20. bu Nizamnamənin 3.1.1-ci və 3.2.1-ci yarımbəndlərində nəzərdə tutulmuş məsələlərin həlli üçün tədbirlər görür;

4.5.21. İdarə Heyəti sədrinin səlahiyyətlərinə aid edilməyən bütün digər məsələlər barədə qərar verir.";

1.33. aşağıdakı məzmunda 4.6-1 - 4.6-3-cü bəndlər əlavə edilsin:

"4.6-1. İdarə Heyətinin üzvlərinə iclasın keçiriləcəyi yer və vaxt, habelə gündəliyə daxil edilmiş məsələlər barədə iclasa azı 3 (üç) iş günü qalmış, zəruri sənədlər əlavə edilməklə yazılı məlumat verilir.

4.6-2. İclasın gündəliyinə İdarə Heyətinin hər hansı üzvünün maraqlarına toxunan məsələ çıxarıldıqda, həmin üzv bununla bağlı maraqları haqqında ətraflı məlumat verməli, bu məsələnin müzakirəsində və həmin məsələyə dair səsvermədə iştirak etməməlidir.

4.6-3. Gündəliyə daxil edilməmiş və ya tələb olunan aidiyyəti sənədləri iclasdan qabaq təqdim edilməmiş məsələlər barədə, bütün iştirakçı üzvlərin razılıq verdiyi hallar istisna olmaqla, qərar qəbul edilə bilməz.";

1.34. 4.7.1-ci yarımbəndə "fəaliyyətinə" sözündən əvvəl "cari" sözü əlavə edilsin;

1.35. aşağıdakı məzmunda 4.7.8-1-ci və 4.7.8-2-ci yarımbəndlər əlavə edilsin:

"4.7.8-1. "Azərbaycan Respublikasında icbari tibbi sığortanın tətbiqinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 20 dekabr tarixli 418 nömrəli Fərmanının 3.6-cı bəndi nəzərə alınmaqla, müəyyən edilmiş struktur, əməkhaqqı fondu və işçilərin say həddi daxilində Agentliyin Aparatının və digər struktur bölmələrinin strukturunu, ştat cədvəlini və xərclər smetasını təsdiq edir;

4.7.8-2. Agentliyin işçilərinin vəzifə maaşlarının, vəzifə maaşlarına əlavələrin, mükafatların və digər ödənişlərin verilməsini əməkhaqqı fondu çərçivəsində təşkil edir;";

1.36. 4.7.10-cu yarımbənddə "və məxfilik rejiminin qorunması" sözləri "məxfilik rejiminin, habelə qanunla qorunan digər məlumatların mühafizəsi" sözləri ilə əvəz edilsin;

1.37. 4.7.14-cü yarımbənddə "həmçinin təsərrüfat cəmiyyətlərinin rəhbərlərinin" sözləri "habelə tabeliyindəki digər qurumların işçilərinin (təsərrüfat cəmiyyətlərində və TƏBİB-də isə yalnız rəhbərlərin)" sözləri ilə əvəz edilsin;

1.38. 4.7.18-ci yarımbənd ləğv edilsin;

1.39. 4.9-cu bəndə "verməməlidirlər" sözündən sonra ", həmçinin Azərbaycan Respublikası Mülki Məcəlləsinin 49-cu maddəsində müəyyən edilmiş digər tələbləri yerinə yetirməlidirlər" sözləri əlavə edilsin;

1.40. 5.1-ci bənddə "4 000 000 (dörd milyon)" rəqəmləri və sözləri "9 565 947, 36 (doqquz milyon beş yüz altmış beş min doqquz yüz qırx yeddi manat otuz altı qəpik)" rəqəmləri və sözləri ilə əvəz edilsin;

1.41. 5.4-cü bənddən "müəyyən edilmiş qaydada" sözləri çıxarılsın və həmin bənddə "nümayəndəliklərinin fəaliyyətindən əldə edilmiş mənfəəti" sözləri "nümayəndəliklərinin, habelə tabeliyindəki digər qurumların fəaliyyətindən əldə edilmiş vəsait" sözləri ilə əvəz edilsin;

1.42. 6.1-ci bəndə "Prezidenti" sözündən sonra ", həmçinin bu Nizamnamə ilə müəyyən edilmiş qaydada İdarə Heyəti" sözləri əlavə edilsin;

1.43. 7.2-ci bənddən "statistik uçot aparır," sözləri çıxarılsın;

1.44. 7.3-cü bəndə "cəmiyyətlərinin" sözündən sonra ", habelə tabeliyindəki digər qurumların" sözləri əlavə edilsin.

2. Müəyyən edilsin ki, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin Nizamnaməsinin 4.5.11-1-ci yarımbəndində nəzərdə tutulan istisna 2020-ci il yanvarın 1-dən tətbiq olunur.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 7 fevral 2019-cu il*

# "Sığorta fəaliyyəti haqqında", "Qiymətli kağızlar bazarı haqqında", "Banklar haqqında", "Pasportlar haqqında" Azərbaycan Respublikasının qanunlarında, Azərbaycan Respublikasının 2005-ci il 24 iyun tarixli 945-IIQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Vəzifəli şəxslər tərəfindən maliyyə xarakterli məlumatların təqdim edilməsi Qaydaları"nda və Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 10-cu, 11-ci, 20-ci və 27-ci bəndlərini rəhbər tutaraq, "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 12 iyun tarixli 1185-VQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alır:**

**Maddə 1.** "Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 3, maddə 144, № 7, maddə 602; 2009, № 7, maddə 517; 2011, № 1, maddə 11; 2013, № 12, maddə 1470; 2014, № 7, maddələr 771, 779; 2015, № 11, maddə 1263; 2016, № 3, maddə 410, № 6, maddə 976; 2017, № 7, maddələr 1286, 1294, № 12, I kitab, maddə 2221; 2018, № 7, I kitab, maddə 1392) 123.2-ci maddəsinə "maliyyə bazarlarına nəzarət orqanına" sözlərindən sonra "və ya maliyyə monitorinqi orqanına" sözləri əlavə edilsin.

**Maddə 2.** "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 7, maddə 813; 2016, № 3, maddə 411, № 11, maddə 1756, № 12, maddə 2003; 2017, № 2, maddə 159, № 5, maddə 712, № 12, I kitab, maddə 2222; 2018, № 5, maddə 893, № 7, I kitab, maddə 1395) aşağıdakı dəyişikliklər edilsin:

2.1. 19.6.4-cü maddəyə "maliyyə bazarlarına nəzarət orqanının" sözlərindən sonra "və ya maliyyə monitorinqi orqanının" sözləri əlavə edilsin.

2.2. 28.2-ci maddəyə "maliyyə bazarlarına nəzarət orqanının" sözlərindən sonra ", maliyyə monitorinqi orqanının" sözləri əlavə edilsin.

**Maddə 3.** "Banklar haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 3, maddə 130; 2005, № 4, maddə 276; 2007, № 5, maddə 401, № 6, maddə 562, № 11, maddə 1070; 2008, № 11, maddə 960; 2009, № 6, maddə 404, № 7, maddə 517; 2010, № 4, maddə 276, № 10, maddə 839; 2011, № 7, maddə 590; 2013, № 7, maddə 790; 2014, № 7, maddə 772, № 12, maddə 1517; 2015, № 11, maddə 1262; 2016, № 3, maddə 406, № 6, maddə 975; 2017, № 4, maddə 521, № 11, maddə 1956, № 12, I kitab, maddə 2227; 2018, № 1, maddə 33, № 5, maddə 842, № 7, I kitab, maddə 1389) 41.2-ci maddəsinin birinci cümləsinə "kənar auditorlara" sözlərindən sonra ", maliyyə monitorinqi orqanına" sözləri əlavə edilsin.

**Maddə 4.** "Pasportlar haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1994, № 18, maddə 243; 1995, № 14, maddə 237; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, № 5, maddə 385, № 6, maddə 493; 1998, № 2, maddə 70; 2000, № 12, maddə 835; 2001, № 3, maddə 143, № 6, maddə 378, № 11, maddə 674; 2002, № 1, maddə 4, № 8, maddə 463; 2004, № 7, maddə 505; 2005, № 3, maddə 152, № 10, maddə 874; 2006, № 1, maddə 3, № 2, maddə 64, № 3, maddə 219, № 4, maddə 319, № 11, maddə 933, № 12, maddələr 1006, 1017, 1029; 2007, № 7, maddə 712, № 8, maddə 753, № 11, maddə 1053; 2008, № 3, maddə 158, № 8, maddələr 699, 701, № 10, maddə 886; 2009, № 7, maddə 519; 2010, № 3, maddə 166, № 4, maddə 276, № 11, maddə 935; 2011, № 4, maddə 270, № 6, maddə 474, № 7, maddə 580; 2012, № 7, maddə 647; 2013, № 5, maddə 465, № 6, maddə 619, № 7, maddə 793; 2014, № 4, maddə 323, № 11, maddə 1335; 2015, № 6, maddə 688; 2017, № 6, maddələr 1042, 1045, № 12, maddə 2263; Azərbaycan Respublikasının 2018-ci il 30 oktyabr tarixli 1305-VQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

4.1. 5-ci maddənin birinci hissəsində "Mərkəzi Bank yanında Maliyyə Monitorinqi Xidmətinin" sözləri "maliyyə monitorinqi orqanının" sözləri ilə əvəz edilsin;

4.2. 6-cı maddənin birinci hissəsinin 1-ci bəndində "Mərkəzi Bank yanında Maliyyə Monitorinqi Xidmətinin direktoruna" sözləri "maliyyə monitorinqi orqanının rəhbərinə" sözləri ilə əvəz edilsin.

**Maddə 5.** Azərbaycan Respublikasının 2005-ci il 24 iyun tarixli 945-IIQ nömrəli Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 8, maddə 690; 2006, № 4, maddə 316; 2007, № 10, maddə 934; 2008, № 8, maddə 699; 2010, № 3, maddə 166, № 4, maddə 276, № 5, maddə 381) ilə təsdiq edilmiş "Vəzifəli şəxslər tərəfindən maliyyə xarakterli məlumatların təqdim edilməsi Qaydaları"nın 3.1-ci maddəsinin ikinci abzasında "Azərbaycan Respublikasının Mərkəzi Bankı yanında Maliyyə Monitorinqi Xidmətinin direktoru və onun müavini" sözləri "maliyyə monitorinqi orqanının rəhbəri və onun müavinləri" sözləri ilə əvəz edilsin.

**Maddə 6.** Azərbaycan Respublikasının Mülki Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 4, I kitab, maddə 250, № 5, maddə 323; 2002, № 12, maddə 709; 2003, № 8, maddə 420; 2004, № 3, maddə 123, № 5, maddə 318, № 6, maddə 415, № 10, maddə 761, № 11, maddə 901; 2005, № 2, maddə 61, № 6, maddə 466, № 8, maddələr 684, 692, 693, № 11, maddə 996, № 12, maddə 1085; 2006, № 2, maddə 68, № 3, maddə 225, № 5, maddə 387, № 6, maddə 478, № 8, maddə 657, № 12, maddə 1005; 2007, № 2, maddə 80, № 6, maddə 560, № 8, maddə 745, № 10, maddə 937, № 11, maddə 1053, № 12, maddələr 1215, 1219; 2008, № 3, maddə 145, № 6, maddə 456, № 7, maddə 602, № 12, maddə 1049; 2009, № 2, maddə 47, № 5, maddə 295, № 6, maddə 404, № 7, maddə 517; 2010, № 2, maddə 75, № 3, maddə 171, № 4, maddələr 265, 266, 276; 2011, № 2, maddə 71, № 7, maddə 586, № 8, maddə 750, № 12, maddələr 1073, 1102; 2012, № 1, maddə 5, № 5, maddə 403, № 6, maddə 498; 2013, № 1, maddə 15, № 6, maddə 620, № 11, maddə 1280, № 12, maddələr 1469, 1478; 2014, № 2, maddə 96, № 7, maddə 768; 2015, № 3, maddə 254, № 5, maddə 512, № 7, maddə 814, № 10, maddə 1093; 2016, № 1, maddə 26, № 2, I kitab, maddələr 186, 204, № 3, maddə 401, № 4, maddələr 640, 646, № 6, maddə 1005, № 7, maddə 1248, № 12, maddələr 1998, 2018; 2017, № 2, maddələr 151, 153, № 4, maddə 524, № 5, maddələr 703, 735, № 6, maddə 1035, № 11, maddə 1953, № 12, I kitab, maddələr 2210, 2234, 2239; 2018, № 2, maddə 142, № 4, maddə 650, № 5, maddələr 845, 851; Azərbaycan Respublikasının 2018-ci il 30 oktyabr tarixli 1295-VQD və 1297-VQD nömrəli qanunları) 967.2-ci maddəsinin birinci cümləsində "kənar auditorlara" sözlərindən sonra ", maliyyə monitorinqi orqanına" sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 dekabr 2018-ci il*

# "Sığorta fəaliyyəti haqqında", "Qiymətli kağızlar bazarı haqqında", "Banklar haqqında", "Pasportlar haqqında" Azərbaycan Respublikasının qanunlarında, Azərbaycan Respublikasının 2005-ci il 24 iyun tarixli 945-IIQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Vəzifəli şəxslər tərəfindən maliyyə xarakterli məlumatların təqdim edilməsi Qaydaları"nda və Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 28 dekabr tarixli 1444-VQD nömrəli Qanununun tətbiqi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "Sığorta fəaliyyəti haqqında", "Qiymətli kağızlar bazarı haqqında", "Banklar haqqında", "Pasportlar haqqında" Azərbaycan Respublikasının qanunlarında, Azərbaycan Respublikasının 2005-ci il 24 iyun tarixli 945-IIQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Vəzifəli şəxslər tərəfindən maliyyə xarakterli məlumatların təqdim edilməsi Qaydaları"nda və Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 28 dekabr tarixli 1444-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Sığorta fəaliyyəti haqqında", "Qiymətli kağızlar bazarı haqqında", "Banklar haqqında", "Pasportlar haqqında" Azərbaycan Respublikasının qanunlarında, Azərbaycan Respublikasının 2005-ci il 24 iyun tarixli 945-IIQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Vəzifəli şəxslər tərəfindən maliyyə xarakterli məlumatların təqdim edilməsi Qaydaları"nda və Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Sığorta fəaliyyəti haqqında", "Qiymətli kağızlar bazarı haqqında", "Banklar haqqında", "Pasportlar haqqında" Azərbaycan Respublikasının qanunlarında, Azərbaycan Respublikasının 2005-ci il 24 iyun tarixli 945-IIQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Vəzifəli şəxslər tərəfindən maliyyə xarakterli məlumatların təqdim edilməsi Qaydaları"nda və Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 31 yanvar 2019-cu il*

## "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alır:**

"Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 9, maddə 564; 2001, № 5, maddə 298, № 11, maddələr 676, 698; 2002, № 1, maddə 9, № 8, maddə 463; 2003, № 8, maddə 424; 2004, № 2, maddə 57, № 11, maddə 901; 2005, № 4, maddə 277, № 10, maddə 874, № 11, maddə 993; 2006, № 12, maddə 1027; 2007, № 6, maddə 560, № 11, maddələr 1053, 1091; 2008, № 2, maddə 49, № 6, maddələr 453, 463, № 7, maddə 602; 2009, № 2, maddə 47, № 4, maddə 210, № 12, maddə 948; 2010, № 7, maddə 598; 2011, № 2, maddə 71, № 4, maddə 255, № 6, maddə 469, № 12, maddə 1097; 2012, № 5, maddə 402, № 7, maddə 671; 2013, № 4, maddələr 362, 363, № 7, maddə 795, № 11, maddələr 1295, 1298; 2014, № 4, maddələr 343, 346, № 5, maddə 467, № 11, maddə 1352; 2015, № 1, maddə 2, № 2, maddələr 76, 79, 105, № 5, maddə 502, № 6, maddə 686, № 11, maddələr 1256, 1276; 2016, № 11, maddələr 1758, 1795; 2017, № 2, maddələr 138, 150; № 5, maddə 727, № 8, maddə 1507, № 10, maddə 1774, № 12 (I kitab), maddə 2215; 2018, № 2, maddələr 143, 157, № 4, maddə 645; № 6, maddə 1165, № 7, maddələr 1432, 1436, 1439) 85-ci maddəsində aşağıdakı dəyişikliklər edilsin:

1. Adında və birinci hissəsində ismin müvafiq hallarında "Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı" sözləri ismin müvafiq hallarında "müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum)" sözləri ilə əvəz edilsin.

2. 10-cu bənd aşağıdakı redaksiyada verilsin:

"10) Bu qanunun 52-ci maddəsinin IV və ya VI hissələrində nəzərdə tutulmuş dayanma və ya durma qaydalarını pozmuş sürücü nəqliyyat vasitəsinin yanında olmadığı və həmin nəqliyyat vasitəsi yol hərəkəti və piyadaların hərəkətinə maneə yaratdığı, habelə Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 346-1.5-ci maddəsində nəzərdə tutulmuş hallarda Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 124.5-ci maddəsində nəzərdə tutulmuş qaydada inzibati xəta haqqında qərar tərtib edir və nəqliyyat vasitəsinin ən yaxın mühafizə edilən duracağa aparılmasını təmin edir. Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 346.1-ci, 346.2-ci, 346-1.2-ci, 346-1.3-cü və 346-1.4-cü maddələrində nəzərdə tutulmuş inzibati xətaları törətmiş şəxs nəqliyyat vasitəsinin yanında olmadığı hallarda Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 124.6-cı maddəsində nəzərdə tutulmuş qaydada inzibati xəta haqqında qərar tərtib edir və onun surətini nəqliyyat vasitəsinin ön şüşəsinə qoyur.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 dekabr 2018-ci il*

## "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 28 dekabr tarixli 1435-VQD nömrəli Qanununun tətbiqi və "Yol hərəkəti haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 22 noyabr tarixli 24 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 28 dekabr tarixli 1435-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasına dair təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

3. "Yol hərəkəti haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 22 noyabr tarixli 24 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 11, maddə 666; 2001, № 7, maddə 459; 2003, № 10, maddələr 546, 571; 2004, № 8, maddə 617, № 12, maddə 1005; 2006, № 9, maddə 743; 2008, № 8, maddə 719; 2009, № 4, maddə 226, № 8, maddə 630; 2010, № 7, maddə 606; 2011, № 6, maddə 510; 2012, № 5, maddə 423, № 11, maddə 1079; 2014, № 9, maddə 1043; 2015, № 2, maddələr 110, 140, № 6, maddə 707, № 10, maddə 1116; 2016, № 3, maddə 456, № 4, maddələr 662, 666, № 6, maddə 1062, № 11, maddə 1839; 2017, № 5, maddə 758, № 8, maddə 1521; 2018, № 2, maddələr 169, 197, № 4, maddə 677, № 6, maddə 1241, № 7 (I kitab), maddələr 1466, 1493) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

3.1. 2.1-ci bənddə "və 85-ci maddəsinin" sözləri ", 85-ci maddəsinin adında, birinci hissəsində və" sözləri ilə əvəz edilsin;

3.2. 2.6-cı bənddən ikinci halda "adında, birinci cümləsində," sözləri çıxarılsın;

3.3. 2.36-cı bəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 2.37-ci bənd əlavə edilsin:

"2.37. həmin qanunun 85-ci maddəsinin adında və birinci hissəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, 10-cu bəndinə münasibətdə isə Bakı şəhərinin inzibati ərazisində Bakı Nəqliyyat Agentliyi nəzərdə tutulur.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 31 yanvar 2019-cu il*

## "Avtomobil yolları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci, 10-cu və 23-cü bəndlərini rəhbər tutaraq **qərara alır:**

"Avtomobil yolları haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 3 (I kitab), maddə 125; 2001, № 12, maddələr 731, 736; 2004, № 11, maddə 901; 2006, № 6, maddə 478; 2007, № 5, maddə 436, № 10, maddə 938; 2008, № 5, maddə 348, № 7, maddə 602; 2012, № 6, maddə 506; 2013, № 6, maddələr 599, 624; 2014, № 4, maddə 341, № 7, maddə 775; 2016, № 2 (I kitab), maddə 200, № 12, maddələr 1994, 1995; 2017, № 5, maddə 720; № 12 (I kitab), maddə 2229; 2018, № 1, maddə 20) aşağıdakı dəyişikliklər edilsin:

1. 11-ci maddənin birinci hissəsində ", təsərrüfat və ya əməli idarəçiliyində" sözləri "və ya istifadəsində" sözləri ilə əvəz edilsin.

2. 13-cü maddə üzrə:

2.1. səkkizinci hissədə "reklam və digər məlumat qurğuları" sözləri "məlumat qurğuları (reklam qurğuları istisna olmaqla)" sözləri ilə əvəz edilsin;

2.2. doqquzuncu hissədən ", habelə reklam qurğularının" sözləri çıxarılsın.

3. 14-cü maddənin üçüncü hissəsinin üçüncü abzasında və 15-1-ci maddənin altıncı hissəsində "müvafiq icra hakimiyyəti orqanının" sözləri "müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun)" sözləri ilə əvəz edilsin;

4. 15-1-ci maddənin dördüncü hissəsində "müvafiq icra hakimiyyəti orqanı ilə" sözləri "müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanla (qurumla)" sözləri ilə əvəz edilsin.

5. 18-ci maddənin birinci hissəsinin birinci cümləsində "müvafiq icra hakimiyyəti orqanlarının" sözləri "müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun)" sözləri ilə əvəz edilsin.

6. 19-cu maddə üzrə:

6.1. birinci hissədə "reklam və məlumat qurğuları" sözləri "məlumat qurğuları (reklam qurğuları istisna olmaqla)" sözləri ilə əvəz edilsin;

6.2. ikinci hissədə "lövhələri və qurğular, elanlar və digər məlumat işarələri və göstəricilər" sözləri "reklam və digər məlumat qurğuları" sözləri ilə əvəz edilsin;

6.3. üçüncü hissə aşağıdakı redaksiyada verilsin:

"Avtomobil yollarının torpaq sahəsində reklam qurğularının yerləşdirilməsi Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsi və "Reklam haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada həyata keçirilir.".

7. 19-2-ci maddə üzrə:

7.1. ikinci hissənin birinci cümləsində "müvafiq icra hakimiyyəti orqanı ilə" sözləri "müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanla (qurumla)" sözləri ilə əvəz edilsin;

7.2. dördüncü hissənin ikinci abzasından "bələdiyyə və ya özəl" sözləri çıxarılsın;

7.3. beşinci hissənin birinci abzasında "Bələdiyyə və ya özəl avtomobil" sözləri "Avtomobil" sözü ilə əvəz edilsin.

8. 21-ci maddənin altıncı hissəsi aşağıdakı redaksiyada verilsin:

"Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) öz fəaliyyət istiqamətləri üzrə müvafiq işlərin görülməsi üçün müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) təsdiq etdiyi siyahıda nəzərdə tutulmuş lisenziya və icazələrin alınması tələb olunmur.".

9. 25-ci maddə üzrə:

9.1. ikinci və altıncı hissələrdə "müvafiq icra hakimiyyəti orqanı" sözləri "müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum)" sözləri ilə əvəz edilsin;

9.2. beşinci hissədə "müvafiq icra hakimiyyəti orqanına" sözləri "müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma)" sözləri ilə əvəz edilsin;

10. 29-cu maddə üzrə:

10.1. üçüncü hissə aşağıdakı redaksiyada verilsin:

"Avtomobil yollarında yol hərəkəti "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş hallarda və qaydada müvəqqəti məhdudlaşdırıla və ya qadağan edilə bilər.";

10.2. beşinci hissə ləğv edilsin.

11. 40-cı maddənin ikinci hissəsindən "müvafiq icra hakimiyyəti orqanı və" sözləri çıxarılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 7 dekabr 2018-ci il*

## "Avtomobil yolları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 7 dekabr tarixli 1389-VQD nömrəli Qanununun tətbiqi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Avtomobil yolları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 7 dekabr tarixli 1389-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Avtomobil yolları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasına dair təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Avtomobil Yolları Dövlət Agentliyinin fəaliyyət istiqamətləri üzrə müvafiq işlərin görülməsi üçün alınması tələb olunmayan lisenziya və icazələrin siyahısı barədə təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.5. həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Avtomobil yolları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

3. Müəyyən edilsin ki:

3.1. "Avtomobil yolları haqqında" Azərbaycan Respublikası Qanununun 14-cü maddəsinin üçüncü hissəsinin üçüncü abzasında, 15-1-ci maddəsinin dördüncü və altıncı hissələrində, 18-ci maddəsinin birinci və 19-2-ci maddəsinin ikinci hissələrinin birinci cümlələrində, 21-ci maddəsinin altıncı (hər iki halda), 25-ci maddəsinin ikinci, beşinci və altıncı hissələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

3.2. həmin qanunun 21-ci maddəsinin altıncı hissəsində ikinci halda "orqan" dedikdə Azərbaycan Respublikasının Prezidenti nəzərdə tutulur;

3.3. həmin qanunun 14-cü maddəsinin üçüncü hissəsinin üçüncü abzasında və 15-1-ci maddəsinin altıncı hissəsində "orqan (qurum)" dedikdə yol hərəkətinin təhlükəsizliyi sahəsində Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, habelə Bakı şəhərinin inzibati ərazisində Bakı Nəqliyyat Agentliyi, sərnişin və yük daşımaları sahəsində Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Bakı, Sumqayıt və Gəncə şəhərlərinin inzibati ərazilərində müntəzəm şəhərdaxili sərnişindaşımaya münasibətdə isə, müvafiq olaraq, Bakı Nəqliyyat Agentliyi, Sumqayıt və Gəncə şəhər icra hakimiyyətlərinin başçıları yanında Avtomobil Nəqliyyatı ilə Sərnişindaşıma idarələri nəzərdə tutulur;

3.4. həmin qanunun 15-1-ci maddəsinin dördüncü hissəsində, 19-2-ci maddəsinin ikinci hissəsinin birinci cümləsində, 21-ci maddəsinin altıncı (birinci halda), 25-ci maddəsinin ikinci, beşinci və altıncı hissələrində "qurum" dedikdə Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi nəzərdə tutulur;

3.5. həmin qanunun 18-ci maddəsinin birinci hissəsinin birinci cümləsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi, "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyəti, habelə Bakı şəhərinin inzibati ərazisində Bakı Nəqliyyat Agentliyi nəzərdə tutulur.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 31 yanvar 2019-cu il*

## "Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nın təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 3 may tarixli 1361 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 3 may tarixli 1361 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 5, maddə 765, № 9, maddə 1650, № 10, maddə 1789, № 12 (I kitab), maddələr 2314, 2321; 2018, № 1, maddə 54, № 2, maddələr 200, 219, № 3, maddələr 416, 430, 448, № 5, maddələr 916, 919, № 6, maddə 1243, № 9, maddələr 1828, 1840, № 11, maddələr 2274, 2289; Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 10 dekabr tarixli 383 nömrəli, 21 dekabr tarixli 430 nömrəli fərmanları) ilə təsdiq edilmiş "Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nın 19-cu hissəsinə "229," rəqəmlərindən sonra "253-1.1.1 (yaşıllıqların uçota alınmamasına münasibətdə), 253-1.1.2 (yaşıllıqların uçotu məlumatlarının təhrif edilməsinə münasibətdə), 253-1.1.3," rəqəmləri və sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 7 fevral 2019-cu il*

## Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 18 dekabr tarixli 54 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Müdafiə Nazirliyinin strukturu"nda və "Azərbaycan Respublikasının Müdafiə Nazirliyində ali hərbi rütbəli vəzifələrin siyahısı"nda dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 18 dekabr tarixli 54 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 12, maddə 1521; 2015, № 11, maddə 1309; 2016, № 1, maddə 48; 2017, № 12 (I kitab), maddə 2344; 2018, № 6, maddə 1202; Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 25 dekabr tarixli 431 nömrəli Fərmanı) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Müdafiə Nazirliyinin strukturu"nda və "Azərbaycan Respublikası Müdafiə Nazirliyində ali hərbi rütbəli vəzifələrin siyahısı"nda dəyişiklik təsdiq edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 7 fevral 2019-cu il*

# Azərbaycanlı deputatların Rusiya Dövlət Dumasındakı çıxışları miniatür kitablarda

### "Азербайджанские депутаты в Государственной Думе России. 1906-1917" ikicildlik miniatür kitabının təqdimatı olub

Fevralın 8-də Miniatür Kitab Muzeyində Azərbaycan Respublikası Prezidenti Katibliyinin rəisi-Prezidentin köməkçisi, tarix elmləri doktoru, professor Dilarə Seyidzadənin tədqiqatları əsasında ərsəyə gələn "Азербайджанские депутаты в Государственной Думе России. 1906-1917" ikicildlik miniatür kitabının təqdimatı keçirilib.





AZƏRTAC xəbər verir ki, muzeyin yaradıcısı və təsisçisi, əməkdar mədəniyyət işçisi Zərifə Salahova tədbiri açaraq bu təqdimatı muzey üçün əlamətdar hadisə kimi dəyərləndirib. Qeyd edib ki, kitabda dörd çağırış Rusiya Dövlət Dumasında azərbaycanlı deputatların çıxışlarının mətnləri yer alıb. Birinci cilddə 1906-1907-ci illər I və II çağırış, ikinci cilddə 1907-1917-ci illər III və IV çağırış Dövlət Dumasında azərbaycanlı deputatların çıxışları verilib. Birinci cilddə, həmçinin professor Dilarə Seyidzadənin müvafiq dövrdə azərbaycanlı deputatların Rusiya Dövlət Dumasında fəaliyyətinə dair analitik məqaləsi verilib.

#### Müəllifinə qürur hissi yaşadan mövzu

Təqdimat mərasimində çıxış edən tarix elmləri doktoru, professor Dilarə Seyidzadə bildirib ki, Prezident İlham Əliyevin 2018-ci ili ölkəmizdə "Azərbaycan Xalq Cümhuriyyəti ili" elan etməsi nəticəsində dünya birliyi il ərzində XX əsrin əvvəllərində Azərbaycanda baş vermiş bütün hadisələrlə tanış olmaq imkanı qazanıb. Bu kitabın nəşri də ona dərin minnətdarlıq əlamətidir.

Nəşr haqqında ətraflı məlumat verən tarixçi-alim qeyd edib ki, 1905-ci ilin dekabr ayında Rusiya çarı Dövlət Dumasına seçkilər haqqında fərman imzalayıb. Fərmana əsasən imperiya ərazisində yaşayan əhaliyə, o cümlədən Azərbaycana da Dövlət Dumasına nümayəndə seçmək hüququ verilib. Seçkilər 1905-ci il 17 oktyabr Manifestindən sonra keçirilib. O zaman Azərbaycan Bakı və Yelizavetpol (indiki Gəncə) quberniyalarından ibarət idi, eyni zamanda, Qafqazdakı bütün quberniyalar Rusiya canişinliyinin tərkibində idi. Rus çarının nümayəndəsi - canişinin bütün seçkilərə qarışmaq, seçkilərin gedişində öz düzəlişlərini etmək hüququna malik idi. O zaman ümumi razılığa əsasən Rusiya Dövlət Dumasına Azərbaycandan rus dilini mükəmməl bilən şəxsləri göndərmək qərara alınmışdı. Bu da təbii idi, çünki Dumada bütün danışıqlar rus dilində aparılırdı. 1906-cı ildə Bakı və Yelizavetpol quberniyalarında seçkilər keçirildi. Quberniyalardan Dumaya Moskva və Sankt-Peterburqun ali məktəblərində hüquq təhsili almış şəxslər seçildilər. Deputatların hüquq təhsilli olması xalqın mənafeyini müdafiə etmək baxımından çox gözəl seçim idi. Birinci çağırışda Azərbaycanı Məmmədtağı Əliyev, Əsədullabəy Muradxanov, Əlimərdan bəy Topçubaşov, İsmayıl xan Ziyadxanov, Əbdürrəhimbəy Haqverdiyev təmsil edib.

Azərbaycanlı deputatların daxil olduğu 36 nəfərdən ibarət müsəlman fraksiyasına Əlimərdan bəy Topçubaşov sədrlik edib. Azərbaycanı II Dumada Fətəli xan Xoyski, Xəlil bəy Xasməmmədov, Məmmədağa Şahtaxtinski, İsmayıl Tağıyev, Mustafa Mahmudov və Zeynal Zeynalov, III Dövlət Dumasında Xəlil bəy Xasməmmədov, IV Dumada Məmmədyusif Cəfərov təmsil edib.

Professor Dilarə Seyidzadə ötən əsrin 60-cı illərində Moskvada aspiranturada oxuyarkən apardığı tədqiqatlardan da söz açıb.

Qeyd edək ki, XX əsrin 60-cı illərində tarix elmi ilə məşğul olanlar daha çox beşilliklərdən, tətillərdən, üsyanlardan yazırdılar. Dilarə Seyidzadə isə 1963-cü ildə Moskvaya aspiranturaya oxumağa gedəndə vətəndaş mövqeyi nümayiş etdirərək məhz azərbaycanlı deputatların Dumada fəaliyyəti ilə bağlı dərin tədqiqat aparmağı qarşısına məqsəd qoymuşdu. Hətta o zaman Lenin kitabxanasında stenoqrafik hesabata dair bir şagird dəftəri həcmində məlumat toplaya bilməsi, kadetlərdən, oktyabristlərdən yazmaq barədə ona edilən təklif Dilarə xanımı yolundan çəkindirməyib. Onun namizədlik dissertasiyası ilə yanaşı, gərgin axtarışları sayəsində "Azərbaycan deputatları Rusiya Dövlət Dumasında" monoqrafiyası üçün material toplanıb.

"Tədqiqatımın ən yaxşı hissəsi məhz azərbaycanlı deputatlarla bağlı olan hissədir. Təsadüfi deyil ki, müsəlman Şərqində ilk demokratik respublika Azərbaycanda yaranıb. Bu, həmin böyük insanların dərin zəkası sayəsində baş tutub", - deyə tarixçi-alim bildirib.

#### Azərbaycanın səsini dünyaya çatdıran kitab

Təqdimat mərasimində "Rossotrudniçestvo" Agentliyinin Azərbaycandakı nümayəndəliyinin rəhbəri Valentin Denisov, xalq yazıçısı, Milli Məclisin deputatı Elmira Axundova, Prezident Kitabxanasının direktoru Mayıl Əhmədov, M.F.Axundzadə adına Azərbaycan Milli Kitabxanasının direktoru Kərim Tahirov, yazıçı Natiq Rəsulzadə, Milli Məclisin deputatları Jalə Əliyeva, İlham Məmmədov, "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin İdarə Heyətinin sədri Əsgər Ələkbərov, Milli Məclisin şöbə müdiri Adilə Abbasova, Bakı Dövlət Universitetinin Gender və psixologiya kafedrasının rəhbəri Rəna İbrahimbəyova çıxış ediblər.

Çıxışlarda Dilarə Seyidzadənin sovet dövründə apardığı tədqiqatlar cəsarətli addım kimi dəyərləndirilib. Qeyd edilib ki, təqdimatı keçirilən nəşr Azərbaycanın səsini dünyaya çatdıran kitabdır. Təsadüfi deyil ki, kitabın elektron variantını indiyə qədər 9 minədək insan oxuyub.

Vurğulanıb ki, dəyərli tarixi mənbə olan bu kitabları rus dilinin işlək olduğu ölkələrə göndərmək lazımdır.

Qeyd edək ki, "Азербайджанские депутаты в Государственной Думе России. 1906-1917" ikicildliyi "İndiqo" mətbəəsində Miniatür Kitab Muzeyi tərəfindən hər cildi 100 nüsxə olmaqla rus dilində nəşr edilib. Ölçüsü 60x70 millimetr olan kitabın I cildi 288, II cildi 340 səhifədən ibarətdir. Nəşrdə çoxlu sayda ağ-qara fotoşəkillər yer alıb.

# Dövlət Təhlükəsizliyi Xidmətinin N saylı hərbi hissəsində gənc əsgərlərin növbəti qrupu vətənə sədaqət andı içib





Fevralın 8-də Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) N saylı hərbi hissəsində gənc əsgərlərin növbəti qrupu vətənə sədaqət andı içib.

DTX-nin ictimai əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, əvvəlcə Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi, Azərbaycanın Milli Qəhrəmanı, general-polkovnik Mədət Quliyev və təntənəli tədbirin iştirakçıları ümummilli lider Heydər Əliyevin əziz xatirəsini ehtiramla yad edib, abidəsi önünə gül dəstələri qoyublar.

Döyüş bayrağı sıra meydanına gətirilib. Azərbaycan Respublikasının müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş qəhrəman vətən övladlarının unudulmaz xatirəsi bir dəqiqəlik sükutla yad olunub, Dövlət himni səsləndirilib.

Sonra gənc əsgərlər təntənəli surətdə hərbi and içiblər.

Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin adından andiçmə münasibətilə hərbi hissənin şəxsi heyətini və valideynləri təbrik edən general-polkovnik Mədət Quliyev zabit və əsgərlərə vətəni müdafiə etmək kimi şərəfli və məsuliyyətli xidmətlərində uğurlar arzulayıb.

Sonra Dövlət Təhlükəsizliyi Xidmətinin hərbi qulluqçuları və gənc əsgərlər hərbi marşın sədaları altında tribunanın önündən keçiblər.

Ulu öndərin abidəsi önündə xatirə şəkli çəkdirilib.

Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi, general-polkovnik Mədət Quliyev əsgər valideynləri ilə görüşərək onları bu əlamətdar gün münasibətilə bir daha təbrik edib.

Valideynlər hərbi xidmət üçün yaradılan yüksək şəraitə görə ölkə rəhbərliyinə minnətdarlıqlarını bildirərək övladlarına vətənin müdafiəsində daim ayıq-sayıq dayanmağı və dövlətə sədaqətlə xidmət etməyi tövsiyə ediblər.

General-polkovnik Mədət Quliyev hərbi hissədə xidmətin nümunəvi və səmərəli təşkili, o cümlədən hərbi-texniki və döyüş sahəsində müasir nailiyyətlərin nəticələrinin mənimsənilməsi, ümumən əsgərlərin bilik və vərdişlərinin, fiziki hazırlıqlarının daha da yüksəldilməsi istiqamətində görülən işlərlə tanış olub, tövsiyə və tapşırıqlarını verib.

Qeyd edək ki, Ali Baş Komandan İlham Əliyevin müdrik rəhbərliyi ilə görülən tədbirlər respublikanın müdafiə qabiliyyətini durmadan möhkəmləndirir, Silahlı Qüvvələrin hərbi və hərbi-texniki potensialını gücləndirir. Təsadüfi deyil ki, bu gün Azərbaycan Ordusu dünyanın ən güclü 50 ordusu sırasındadır. Bütün bunlar dövlət səviyyəsində ordu quruculuğu üzrə aparılan məqsədyönlü siyasətin nəticəsidir.

Ölkəmizdə gənclər arasında hərbi-vətənpərvərlik ruhu da çox yüksəkdir. Müasir Azərbaycan Ordusunda xidmətləri ilə fəxr edən gənclərimiz vətən uğrunda canlarından belə keçməyə hazırdırlar.

# Çax-çax baş ağrıdır



Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Sənədlərlə və vətəndaşların müraciəti ilə iş şöbəsinin müdiri Süleyman İsmayılovun "Azərbaycan" qəzetində dərc edilmiş "Prezident İlham Əliyevin vətəndaş müraciətlərinə münasibəti bütün məmurlara örnəkdir" sərlövhəli məqaləsində dövlətimizin liderindən belə sitat gətirilib: "Mənim bir amalım var, güclü dövlət qurmaq və xalqa ləyaqətlə xidmət etmək". Bax elə ABŞ-dakı "Freedom House" beynəlxalq hüquq-müdafiə təşkilatını və digər antiazərbaycan şəbəkəsinin "insan hüquqları müdafiəçilərini" də qıcıqlandıran Azərbaycan Prezidentinin bu mövqedən çıxış edərək atdığı addımlardır. Böyük dövlətlərin nüfuz savaşında Azərbaycanı alətə çevirmək iqtidarında olmamaqdır. Azərbaycan iqtisadi və siyasi cəhətdən yaxın, uzaq qonşularından asılı deyil. Regionda güclü orduya malik dövlətlərdən biridir.

Sirr deyil ki, Azərbaycanı asılı vəziyyətə salmaq, güc mərkəzlərində hazırlanmış mənfur planların şüursuz icraçısına çevirmək cəhdləri uzun illərdir ki, özünü göstərir. Artıq, xüsusilə "Freedom House"nin hesabatları xalqımız üçün heç bir maraq kəsb etmir. Bu hesabatlar tutuquşunun sahibi tərəfindən öyrətdiyi eyni sözləri hər dəfə təkrar söyləməsinə bənzəyir. Yəqin hesabatı hazırlayanlar da bilirlər ki, dövriyyəyə buraxdıqları yalanların təsir gücü yoxdur. Bu, onlar üçün əhəmiyyət də kəsb etmir. Əsas odur ki, sifarişi yerinə yetirib pullarını alırlar. Erməni lobbisindən geninə-boluna maliyyələşirlər. Hesabatlardan da göründüyü kimi, bədnam beynəlxalq təşkilatları hər cəhətdən dəstəkləyən siyasi, maliyyə dairələrinin iki məqsədi var: Azərbaycanı beynəlxalq aləmdə təkləmək, nüfuzdan salmaq, xalq-iqtidar arasında uçurum yaratmaq. Burada yadıma atalarımızın məşhur məsəli düşür: "Dəyirman öz işindədir, çax-çax baş ağrıdır". "Freedom House"lərin çax-çaxı ürəyimizi bulandırsa da, respublikamız beynəlxalq aləmdə uğurlu siyasəti sayəsində mövqeyini möhkəmləndirməkdədir. Ölkəmizin böyük dövlətlərlə dostluq, bərabərhüquqlu əlaqələri get-gedə daha da güclənir. Regionda bütün iri layihələr Azərbaycanın razılığı və iştirakı olmadan həyata keçirilə bilmir.

Azərbaycanda vətəndaş cəmiyyəti Avropa standartları tələblərinə uyğun formalaşıb. Hər bir vətəndaş konstitusiya hüquqlarından sərbəst bəhrələnir. Hər bir vətəndaş, siyasi baxışından asılı olmayaraq, qəzet, jurnal və sair çap vasitəsi çap etmək hüququna malikdir. Mitinq, söz azadlığına sərhəd qoyulmur.

Azərbaycan Prezidenti deyir: "Bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı, onun problemləri, onun qayğıları, onun rifahı dayanır". Hörmətli İlham Əliyev dediyi bu sözləri əməli ilə sübut edir. Elə bu günlərdə Şamaxıda zəlzələdən zərər çəkmiş insanların yanında oldu. Onların problemlərini öz dillərindən eşitdi. Müvafiq orqanlara göstərişlər verdi. Xalq onun bu təəssübkeşliyini yüksək qiymətləndirir.

Xatirə Rəhimzadə adlı Şamaxı sakininin dediyi aşağıdakı sözləri bütövlükdə xalqımızın Prezidentimizə inamının, məhəbbətinin rəmzi də adlandırmaq olar: "Sağ olun ki, varsınız. Biz Sizə arxalanırıq. Xalqı bu qədər sevirsiniz. Sağ olun ki, xalqa bu qədər dəstəksiniz. Dəstəyinizə görə minnətdarıq. Sizinlə qürur duyuruq. Prezidentimizin belə qayğıkeşliyi, xalqa xidməti ilə çox qürur duyuruq. Azərbaycan etibarlı əllərdədir".

Mən işimlə əlaqədar çox ölkədə olmuşam. Açığı, heç bir ölkədə belə xalq və iqtidar birliyi görməmişəm. Bu birliyi görməmək üçün ən azı "Freedom House" kimi kor olmaq lazımdır.

***Səttar MÖHBALIYEV,***
***AHİK sədri, Milli Məclisin deputatı, BHİK-in vitse-prezidenti***

# Azərbaycan və Rusiya nazirləri Samur çayının üzərində yeni körpünün tikintisi ilə tanış olublar

Fevralın 8-də Azərbaycan-Rusiya dövlət sərhədində hər iki ölkənin nümayəndə heyətləri "Yaraq-Qazmalar" sərhəd buraxılış məntəqəsində (Rusiya Federasiyası) yenidənqurma və rekonstruksiya işlərinə, "Samur" sərhəd buraxılış məntəqəsinə (Azərbaycan Respublikası) və Samur çayı üzərində avtomobil körpüsünün tikintisinə baxış keçiriblər.

AZƏRTAC xəbər verir ki, baxışda Azərbaycan tərəfdən iqtisadiyyat naziri Şahin Mustafayev, Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov, nəqliyyat, rabitə və yüksək texnologiyalar nazirinin müavini Elmir Vəlizadə, Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlu, Rusiya tərəfdən isə bu ölkənin iqtisadi inkişaf naziri Maksim Oreşkin, Rusiyanın ölkəmizdəki səfiri Mixail Boçarnikov və başqaları iştirak ediblər.

Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov tikintidə mövcud vəziyyət və görüləcək işlər barədə məlumat verib. Bildirilib ki, yeni körpünün inşasının bu ilin noyabrında başa çatdırılması, dekabrda isə istifadəyə verilməsi nəzərdə tutulur.

Sərhəd-keçid məntəqəsində görülən işlərlə tanışlıqdan sonra iqtisadiyyat naziri Şahin Mustafayev jurnalistlərə müsahibəsində bildirib ki, ölkələrimizin əlaqələri yüksək səviyyədədir və uğurla inkişaf edir. Rusiya qeyri-neft məhsullarının idxalı və ixracı üzrə Azərbaycanın ən böyük tərəfdaşıdır. Ölkələrimiz arasında ticarət dövriyyəsi ilbəil artmaqdadır, təkcə keçən il bu rəqəm 20 faizədək artıb. Bu potensial daha yüksəkdir və onun artırılması istiqamətində işlər görülür.

"Bu gün inşa olunan yeni körpüyə baxış zamanı təqdimat keçirildi. Yeni tikilən körpü yüklərin daşınması üçün daha əlverişli şərait yaradacaq və yüklərin hazırkı dayanma müddəti aradan qaldırılacaq. Yəni, sahibkarlarımızın Rusiyaya yük daşınmasına sərf etdikləri vaxt kifayət qədər azalacaq. Bu isə həm xərclərin azalmasına, həm də ölkələr arasında ticarət dövriyyəsinin artmasına səbəb olacaq. İnşaat işlərinin xərclərinin 50 faizi Azərbaycan, 50 faizi isə Rusiya hökuməti tərəfindən ödənilib. Körpünün tikintisi uğurla davam etdirilir", - deyə Ş.Mustafayev qeyd edib.

Şahin Mustafayev bildirib ki, digər sərhəd-keçid məntəqələrindəki vəziyyət də müzakirə olunacaq və əsas diqqət bu məntəqələrdə yüklərin daha rahat və qısa müddətdə keçirilməsinə yönələcək: "Azərbaycan öz infrastrukturunu ilbəil yaxşılaşdırır. Sərhəd-keçid məntəqələrinin fəaliyyətinin səmərəliliyinin artırılması, yeni körpülərin tikintisi, avadanlıqların alınması bu tədbirlərin tərkib hissəsidir. Beləliklə, yeni körpü və quraşdırılan avadanlıqlar həm də "Şimal-Cənub nəqliyyat dəhlizi"nin səmərəliliyinin artırılması istiqamətində atılan addımlardır".

Rusiyanın iqtisadi inkişaf naziri Maksim Oreşkin qeyd edib ki, ölkələrimiz arasında iqtisadi əlaqələr uğurla inkişaf edir. Amma bu prosesi ləngidən bəzi maneələr var idi: "Buradakı köhnə körpü, infrastruktur ölkələrimiz arasında artan ticarət dövriyyəsinə cavab vermirdi. Azərbaycandan Rusiyaya, həm də İrandan Azərbaycan ərazisindən keçməklə Rusiyaya daşımaların artdığını nəzərə alsaq, yeni tikilən körpünün böyük əhəmiyyəti olacaq. Eyni zamanda, insanların da bu məntəqələrdən rahat istifadəsi üçün hərtərəfli şərait yaradılacaq".

***

Fevralın 8-də Rusiya Federasiyasının Dərbənd şəhərində Rusiya və Azərbaycan nümayəndə heyətlərinin görüşü keçirilib.

Azərbaycan tərəfdən nümayəndə heyətində İqtisadiyyat, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar nazirliklərinin, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin, Dövlət Gömrük Komitəsinin, Dövlət Sərhəd Xidmətinin, Xaçmaz və Qusar rayon icra hakimiyyətlərinin rəhbər şəxsləri, eləcə də ölkəmizin Rusiyadakı səfiri Polad Bülbüloğlu təmsil olunub. Rusiya tərəfi isə iqtisadi inkişaf naziri Maksim Oreşkinin rəhbərliyi ilə əlaqədar qurumların nümayəndələrinin və Rusiyanın ölkəmizdəki səfiri Mixail Boçarnikovun, Dağıstan Respublikasının rəhbəri Vladimir Vasilyevin daxil olduğu heyətlə təmsil edilib.

İqtisadiyyat naziri Şahin Mustafayev xalqlarımız və ölkələrimiz arasındakı dostluğa, dövlət başçılarının siyasi iradəsinə əsaslanan yüksək səviyyəli münasibətlərin, Azərbaycan-Rusiya iqtisadi əlaqələrinin uğurla inkişaf etdiyini, ölkələrimiz arasında əməkdaşlığın strateji tərəfdaşlıq səviyyəsinə yüksəldiyini vurğulayıb. Qeyd edib ki, Azərbaycan və Rusiya prezidentləri əlaqələrin inkişafına böyük önəm verir, dövlət başçılarının, rəsmi nümayəndə heyətlərinin və iş adamlarının qarşılıqlı səfərləri bunun əyani göstəricisidir: "Rusiya Azərbaycanın əsas ticarət tərəfdaşlarındandır və Rusiya qeyri-neft məhsullarımızın ixracı üzrə də birinci yerdədir. Təkcə ötən ildə iki ölkə arasında ticarət dövriyyəsi 20 faiz artıb".

Azərbaycan və Rusiya arasında nəqliyyat-tranzit sahəsində həyata keçirilən layihələr barədə məlumat verən nazir Samur çayı üzərində avtomobil körpüsünün tikintisinin iqtisadi-ticarət əlaqələrinin, "Şimal-Cənub Beynəlxalq nəqliyyat dəhlizi"nin inkişafında əhəmiyyətli olacağını qeyd edib.

Görüşdə ölkələrimiz arasında energetika, sənaye, turizm, kənd təsərrüfatı, meliorasiya, gömrük, mədəniyyət, təhsil və sair sahələrdə əlaqələrin inkişaf etdiyi və əməkdaşlıq üçün böyük potensialın mövcudluğu qeyd olunub.

Rusiyanın iqtisadi inkişaf naziri M.Oreşkin qeyd edib ki, Rusiya və Azərbaycan prezidentlərinin siyasi iradəsinə əsaslanan əməkdaşlıq inkişaf edir. Nazir iqtisadi-ticarət əlaqələrinin genişləndirilməsi üçün potensialı vurğulayaraq əlaqələrin inkişaf istiqamətləri barədə fikirlərini bildirib, aparılan müzakirələrin əlaqələrin inkişafı, xüsusilə də nəqliyyat-tranzit sahəsində əməkdaşlığın genişləndirilməsi baxımından əhəmiyyətli olacağını diqqətə çatdırıb. O, Samur çayı üzərində avtomobil körpüsünün tikintisinin iki ölkə arasında artan ticarət əlaqələrinin daha da genişləndirilməsi baxımından önəmini qeyd edib, "Şimal-Cənub Beynəlxalq nəqliyyat dəhlizi"nin inkişafına töhfə verəcəyini bildirib.

Görüşdə Azərbaycan-Rusiya iqtisadi-ticarət əlaqələrinin, nəqliyyat-tranzit sahəsində əməkdaşlığın genişləndirilməsinə, "Şimal-Cənub Beynəlxalq nəqliyyat dəhlizi"nin inkişafına dair müzakirələr aparılıb.

Səfər çərçivəsində Azərbaycan və Rusiya nümayəndə heyətləri "Narın Qala" tarixi abidəsi ilə tanış olub. Nümayəndə heyətinə Dərbənd qalasının bir hissəsini təşkil edən "Narın Qala" istehkamına daxil olan tarixi memarlıq abidələri barədə məlumat verilib.

Nümayəndə heyətləri Azərbaycan ilə Rusiyanın dövlət sərhədində "Yaraq-Qazmalar", "Samur" sərhəd buraxılış məntəqələrinə və Samur çayı üzərində avtomobil körpüsünün tikintisinə də baxış keçirib.

# AMEA-nın Tarix İnstitutunun Elmi Arxivi və Kitabxanasının ilk elektron oxu zalının açılışı olub



Fevralın 8-də Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) A.A.Bakıxanov adına Tarix İnstitutunun Elmi Arxivi və Kitabxanasının ilk elektron oxu zalının açılışı olub.

AZƏRTAC xəbər verir ki, alim və mütəxəssislərin iştirak etdikləri açılış mərasimində AMEA-nın prezidenti, akademik Akif Əlizadə ölkəmizdə elmə xüsusi önəm verildiyini bildirib, bu sahənin inkişafı ilə bağlı reallaşdırılan tədbirlərdən danışıb.

Tarix İnstitutunun direktoru, akademik Yaqub Mahmudov bu elm müəssisəsinin Elmi Arxivi və Kitabxanası barədə məlumat verib. Bildirib ki, elektron oxu zalı AMEA-da gedən islahatlar fonunda yaradılıb: "Tarix İnstitutunun arxivi Azərbaycanın ən zəngin fondlarından biridir".

Qeyd olunub ki, son illərdə Tarix İnstitutunda arxiv sənədləri və kitabların elektron kataloqu hazırlanıb.

Yaqub Mahmudov bu elm müəssisəsinə Paris, London, Berlin, Dehli, Moskva, Sankt-Peterburq, İstanbul, Ankara və digər şəhərlərdən 100 mindən çox arxiv sənədi gətirildiyini deyib. Məlumat verilib ki, institutun Elmi Arxivi və Kitabxanasında 170 min arxiv sənədi, 17 min kitab, "Azərbaycan" qəzetinin elektron və çap variantı (1993-2017), elmi jurnallar, dissertasiya işləri, avtoreferatlar, xəritələr və s. var.

Kitabxanadakı 17 min kitabdan 10 mini ərəb dilində olan elektron kitablardır. Onların arasında müasir ərəb və Misir tarixçilərinin kitabları, "Müasir islam tarixində Osmanlı dövləti", "Osmanlı dövləti necə süqut etdi", "Təbəri tarixindən seçmələr", "İraq mədəniyyəti", "Ərəb ədəbiyyatı tarixi" və digər kitabları qeyd etmək olar.

İnstitutun arxivində Azərbaycanın görkəmli tarixçilərinin fondları var. Tarix İnstitutunda "Azərbaycan tarixi ilk mənbələrdə" layihəsi çərçivəsində arxiv sənədləri çoxcildli toplular şəklində hazırlanaraq tədqiqatçılara və geniş oxucu kütləsinə təqdim edilir.

Sonra tədbir iştirakçıları Elmi Arxiv və Kitabxanada yaradılan şəraitlə tanış olublar.

# Prezident İlham Əliyevin tapşırığına əsasən mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri bölgələrdə vətəndaşları qəbul ediblər

Fevralın 8-də təhsil naziri Ceyhun Bayramov Neftçala şəhərindəki Heydər Əliyev Mərkəzində Hacıqabul, Salyan, Neftçala, Biləsuvar, Cəbrayıl rayonlarının və Şirvan şəhərinin sakinlərini qəbul edib.

Qəbulda Hacıqabul, Salyan, Neftçala, Biləsuvar, Cəbrayıl rayonlarında və Şirvan şəhərində müvəqqəti məskunlaşmış məcburi köçkünlər də iştirak ediblər.

Nazir qəbula yazılmış vətəndaşların müraciət, şikayət və təkliflərini diqqətlə dinləyərək onların aradan qaldırılması, hər bir müraciətin operativ şəkildə araşdırılması, qaldırılan məsələlərin qanunvericiliyə uyğun həlli istiqamətində nazirliyin müvafiq aidiyyəti qurumlarının rəhbərlərinə konkret tapşırıqlar verib.

Qəbulda vətəndaşlar əsasən müəllimlərin işə qəbulu və yerdəyişməsi, dərs saatlarının artırılması, işə bərpaolunma, təhsil sənədlərinin tanınması və digər məsələlərlə əlaqədar müraciət ediblər.

***

Mədəniyyət naziri Əbülfəs Qarayev fevralın 8-də Tovuz şəhərindəki Heydər Əliyev Mərkəzində vətəndaşları qəbul edib.

Qəbulda Tovuz, Ağstafa, Qazax, Şəmkir, Göygöl, Gədəbəy və Daşkəsən rayonlarından vətəndaşların müxtəlif məsələlərlə bağlı müraciətləri dinlənilib.

Qəbulda müraciətlərin bir qismi həllini tapıb, digər məsələlər araşdırılması üçün nəzarətə götürülüb və lazımi tədbirlərin görülməsi üçün tapşırıqlar verilib.

***

Nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri Ramin Quluzadə fevralın 8-də Hacıqabulda vətəndaşlarla görüşüb.

Hacıqabulla yanaşı, Şirvan şəhər, Sabirabad və Saatlı rayonlarının sakinlərinin də iştirak etdiyi görüşdə vətəndaşların müraciətləri dinlənilib, qaldırılan məsələlərin həlli üçün nazirliyin müvafiq qurumlarına tapşırıqlar verilib. Əksər müraciətlər yerindəcə öz müsbət həllini tapıb.

Müraciətlər telekommunikasiya, internet, poçt xidmətləri, yol təmir-tikintisi, yeni marşrut xəttinin açılması, marşrut qrafiklərində dəyişiklik edilməsi, işə qəbul kimi məsələləri əhatə edib.

Nazirliyin səlahiyyətlərinə aid olmayan məsələlər müvafiq qurumlara ünvanlanması üçün qeydiyyata alınıb.

***

Gənclər və idman naziri Azad Rəhimov fevralın 8-də Şirvan şəhərindəki Gənclər evində Şirvan, Hacıqabul, Neftçala, Saatlı, Sabirabad, Salyan şəhər və rayonlarının sakinlərini qəbul edib.

Gənclər və İdman Nazirliyinin mətbuat xidmətindən bildiriblər ki, ümumilikdə 20-dən çox sakinin iştirak etdiyi qəbulda müraciətlər əsasən gənclər, idman, tikinti sahələri və məşğulluqla bağlı olub.

Bir sıra müraciətlər yerindəcə həllini tapıb. Araşdırılması tələb edilən məsələlər isə aidiyyəti qurumlara göndərilməsi üçün nəzarətə götürülüb.

***AZƏRTAC***

# *Türkiyəli professor:* "Freedom House" kimi təşkilatlar fəaliyyətlərini korrupsiya üzərində qurublar

Fransa Prezidentinin saxta "erməni soyqırımı günü" ilə bağlı açıqlaması və "Freedom House" təşkilatının Azərbaycana qarşı qərəzli mövqeyi eyni məqsədə xidmət edən kampaniyanın tərkib hissəsidir.

Bu fikri AZƏRTAC-a müsahibəsində türkiyəli professor İbrahim Öztək bildirib. "Ədalətin meyarı həqiqətdir. Birinci Dünya müharibəsi dövründə erməniləri silahlandırıb Osmanlı dövlətinə qarşı qaldıran qüvvələr yüz ildir ki, saxta "erməni soyqırımı" mövzusu ilə Türkiyəni məşğul etməyə çalışırlar. Kimə həqiqət lazımdırsa Xocalı soyqırımını tanısın, sonra başqa məsələləri müzakirə edə bilərik. Fransadakı erməni diaspor təşkilatlarının oyuncağına çevrilən siyasətçilər yaxşı bilirlər ki, XX əsrin sonunda işğalçı Ermənistan Azərbaycanın Xocalı şəhərini yerlə-yeksan edib. Bir milyon azərbaycanlı məcburi köçkün kimi bütün hüquqlardan məhrum olub. Azərbaycan torpaqlarının 20 faizi hələ də işğal altındadır", - professor qeyd edib. O, "Freedom House" təşkilatının Azərbaycana qarşı qərəzli mövqeyinə də kəskin etiraz etdiyini bildirib. Əlavə edib ki, bu cür təşkilatlar fəaliyyətlərini korrupsiya üzərində qurublar. Professor deyib: "Fransada siyasi böhran tüğyan edir. Dünənə qədər Azərbaycanı və Türkiyəni mitinq iştirakçıları ilə sərt davranmaqda ittiham edirdilər. İndi Fransada nümayişləri yatırmaq üçün ən qəddar üsullara əl atırlar. "Freedom House" təşkilatının fəaliyyəti də eynilə belədir. Bu və onun kimi digər təşkilatlar heç vaxt yerləşdikləri ölkədəki acınacaqlı vəziyyətdən bəhs edə bilməzlər. Çünki onları təsis edəndə qarşılarına missiya qoyublar: qarayaxma apar, ləkələ, böhtan at... "Freedom House" təşkilatının indiki açıqlaması da bu prosesin davamıdır".


## Azərbaycan Respublikası İcbari Sığorta Bürosu
## Proqram təminatlarına texniki dəstəyin göstərilməsi məqsədilə
## *kotirovka sorğusu elan edir*

Kotirovka sorğusunda iddiaçı kimi iştirak etmək istəyənlər aşağıdakı ünvana - Azərbaycan Respublikasının Bakı şəhəri Yasamal rayonu Bəşir Səfəroğlu küç., 133 ünvanına (əlaqələndirici şəxs: Satınalmalar üzrə mütəxəssis Ceyhun Paşayev, telefon: +994 55 213-51-35) müraciət edə bilərlər.

Kotirovka sorğusunda iddiaçı kimi iştirak etmək istəyənlər imzalanmış və möhürlənmiş kotirovka təkliflərini 15 fevral 2019-cu il saat 17:00-dan gec olmamaq şərtilə təqdim etməlidirlər. Göstərilən müddətdən gec təqdim olunan kotirovka təklifləri baxılmadan geri qaytarılacaqdır.

Təqdim olunan qiymət kotirovkaları üzrə zərflər 18 fevral 2019-cu il saat 10:00 tarixdə İcbari Sığorta Bürosunun binasında açılacaqdır.

İddiaçılar və onların səlahiyyətli nümayəndələri zərflərin açılış prosedurunda iştirak edə bilərlər.

● Təqdim edilməli sənədlər:

Müraciət edənin hüquqi şəxs kimi dövlət qeydiyyatına alınması haqqında şəhadətnamənin və nizamnaməsinin notariat qaydasında və ya "İnzibati icraat haqqında" Azərbaycan Respublikasının Qanununun 9-cu maddəsində müəyyən edilmiş qaydada təsdiq edilmiş surətləri.

● Tələblər:

Xidmət müqaviləsi bağlandığı tarixdən sonra növbəti iş günü icraçı xidmətə başlamalıdır.

***Satınalma komissiyası***

## Naxçıvan Muxtar Respublikası - 95

# Azərbaycanın Nəqşi-Cahanı

**Azərbaycan - qədim Odlar ölkəsi, Qafqaz coğrafiyasında böyük əraziləri və görkəmli şəxsiyyətləri olan, Şərqlə Qərb arasında körpü funksiyasını yerinə yetirən ecazkar bir diyardır.**

Azərbaycan - tarix etibarilə Kür-Araz və Xocalı-Gədəbəy, Kültəpə-Şabran mədəniyyət ənənələri üzərində ucalıb zaman-zaman inkişaf etmiş, möhkəm və dərin köklərə malik möhtəşəm bir ölkədir.

Azərbaycanın tarixi inkişafında müxtəlif iqlim qurşaqlarına, zəngin yeraltı və yerüstü sərvətlərə, davamlı milli-mənəvi ənənələrə malik olan tarixi-mədəni mərkəzlərin böyük yeri və rolu vardır.

Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan diyarı xalqımızın milli-mənəvi təkamülündə, elmi-mədəni və iqtisadi inkişafında özünəməxsus mühüm xidmətləri ilə tanınır.

Dünyadakı qədim sivilizasiya mərkəzlərindən biri də Naxçıvandır. Əsatirə görə, bəşəriyyətin babası Nuh peyğəmbərin əfsanəvi gəmisi Dünya tufanından sonra Naxçıvan ərazisindəki Gəmiqaya adlanan yerdə torpağa enmiş, insanlığın yeni həyatı buradan başlanmışdır. Naxçıvan sözünün etimoloji mənası da Nuhçıxan sözündən götürülmüşdür.

Atabəylər dövlətinin paytaxtı kimi Naxçıvan ölkəmizin dövlətçilik tarixinə şanlı səhifələr yazmışdır.

Naxçıvan Azərbaycanı Türkiyə Cümhuriyyəti vasitəsilə Avropa ilə, İran İslam Respublikasından keçməklə Asiya ilə əlaqələndirən əlverişli bir regiondur.

Azərbaycanın görkəmli tarixi və ədəbi şəxsiyyətlərinin sırasında Naxçıvan torpağının yetirmələrinin böyük payı vardır. Orta əsrlərdə Əcəmi Naxçıvani, Nemətullah Naxçıvani, Nəcməddin Naxçıvani, Nəsirəddin Tusi, Hinduşah Naxçıvani, Fəxrəddin Naxçıvani, Hüsaməddin Naxçıvani, Məhəmməd Naxçıvani və başqaları kimi böyük mütəfəkkirlər və sənətkarlar Azərbaycanın ictimai-ədəbi və elmi fikrini Şərq miqyasında yüksək səviyyədə təmsil etmişlər. Sonrakı dövrlərdə Cəlil Məmmədquluzadə, Məhəmməd ağa Şahtaxtlı, Məhəmməd Tağı Sidqi, Heyran xanım, Eynəli bəy Sultanov, Bəhruz Kəngərli, İbrahim Səfi, Məmməd Səid Ordubadi, Yusif Məmmədəliyev, Həsən Abdullayev, Məmməd Cəfər Cəfərov, Abbas Zamanov, Asəf Zamanov Azərbaycan ədəbiyyatı, elmi və mədəniyyətinin inkişafında böyük xidmətlər göstərmişlər.

Məşhur general Naxçıvanskilər sülaləsi: İsmayıl xan, Hüseyn xan, Ehsan xan, Kalbalı xan, Cəmşid xan Naxçıvanskilər Azərbaycanın hərb tarixində silinməz izlər buraxmışlar.

Naxçıvan - ölkəmizin Ermənistan sərhədlərindəki alınmaz qalasıdır.

Azərbaycan xalqının ümummilli lideri, dünya şöhrətli görkəmli dövlət xadimi Heydər Əliyevi ölkəmizə Naxçıvan torpağı bəxş etmişdir.

Sovet hakimiyyəti illərində muxtar dövlət qurumu kimi fəaliyyət göstərən Naxçıvan ölkəmizin müstəqillik tarixində də mühüm rol oynamışdır.

Azərbaycan Respublikasının tərkibində mövcudluğunu qoruyub saxlamaqda və inkişaf etdirməkdə Naxçıvanın muxtariyyat statusu qazanmasının müstəsna rolu vardır. XX əsrin əvvəllərində Naxçıvan Muxtar Respublikasının yaradılması uğrunda aparılan mübarizə ümumiyyətlə Azərbaycanın ərazi bütövlüyünün qorunub saxlanılması və möhkəmləndirilməsinə xidmət edən şərəfli tariximizin parlaq səhifələridir. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin böyük uzaqgörənliklə dediyi aşağıdakı sözlər Naxçıvan Muxtar Respublikasının tarixi-siyasi əhəmiyyətini dolğun şəkildə ifadə edir: *"Naxçıvanın muxtariyyatı tarixi nailiyyətdir. Biz bunu qoruyub saxlamalıyıq. Naxçıvanın muxtariyyatı Naxçıvanın əldən getmiş başqa torpaqlarının qaytarılması üçün ona xidmət edən çox böyük bir amildir. Biz bu amili qoruyub saxlamalıyıq".*

XX əsrin əvvəllərində erməni-bolşevik birləşməsinin hərbi təcavüzü nəticəsində ölkəmizin qədim torpaqlarından olan Zəngəzur bölgəsinin işğal edilməsi ilə Naxçıvan diyarının Azərbaycanın əsas ərazisindən ayrı düşməsi bu regionda muxtar respublika yaratmaq zərurətini meydana çıxarmışdır. Azərbaycan xalqının vətənpərvər oğulları, görkəmli dövlət xadimləri Nəriman Nərimanovun və Behbud ağa Şahtaxtinskinin xüsusi səyləri ilə Naxçıvanın muxtariyyat statusu qazanması məsələsi region dövlətlərinin diqqət mərkəzinə təqdim olunmuş, ölkə siyasətinin taleyüklü məsələsi səviyyəsinə qaldırılmışdır. Türkiyə Cümhuriyyətinin qurucusu Mustafa Kamal Atatürkün siyasi uzaqgörənliyi, Kazım Qarabəkir paşanın səyləri də Azərbaycan Sovet Respublikasının tərkibində Naxçıvan Muxtar Respublikasının yaradılmasında mühüm əhəmiyyət kəsb etmişdir. Xüsusən, Naxçıvan əhalisinin vətən və torpaq sevgisi, bu ərazilərdə işğalçılıq və təcavüzkarlıq niyyətlərini həyata keçirməyə cəhd göstərən erməni qəsbkarlarına qarşı mərdliklə mübarizə aparan yerli əhalinin böyük əzmi də regionun Azərbaycanın ayrılmaz hissəsi olaraq qorunub saxlanılmasını və proseslərin nəticə olaraq muxtariyyata doğru inkişaf etdirilməsini şərtləndirmişdir. Behbud ağa Şahtaxtinskinin ayıqlığı və fədakarlığı sayəsində 1920-ci ilin yanvar ayında Naxçıvanın ərazi mənsubiyyəti və siyasi statusuna dair keçirilmiş referendumda regionun əhalisinin doxsan faizdən çoxunun Naxçıvanın Azərbaycanın tərkibində tarixi yolunu davam etdirməsinə səs verməsi sonrakı dövrdə qaldırılan muxtar respublika statusu məsələsinin həlledici faktoruna çevrilmişdir.

Nəhayət, Sovet-Türkiyə əməkdaşlığı haqqında imzalanmış 16 mart 1921-ci il tarixli Moskva müqaviləsində ilk dəfə olaraq Naxçıvana Azərbaycanın tərkibində muxtar respublika statusu verilməsi rəsmi bir beynəlxalq sənəddə öz ifadəsini tapmışdır. Bundan sonra 13 oktyabr 1921-ci tarixdə Türkiyənin Qars şəhərində region dövlətlərinin imzaladığı beynəlxalq statusa malik müqavilədə Azərbaycana bağlı Naxçıvan Muxtar Respublikasının yaradılması qəti olaraq rəsmiləşdirilmişdir. Azərbaycandan başqa Türkiyə Cümhuriyyəti, Rusiya Federasiyası, Gürcüstan Respublikası və Ermənistan Sovet Respublikasının birlikdə imzaladığı məşhur Qars müqaviləsi ilə Naxçıvan Muxtar Respublikasının təşkili birdəfəlik həll olunmuşdur. Bütün bunlardan sonra 9 fevral 1924-cü ildə Azərbaycan Sovet Sosialist Respublikasının Naxçıvan Muxtar Sovet Sosialist Respublikası rəsmi şəkildə elan olunmuşdur. Beləliklə, Naxçıvan Muxtar Respublikasının yaradılması Azərbaycanda dövlət səviyyəsində ölkəmizin ərazi bütövlüyünün, coğrafi sərhədlərin konkret olaraq müəyyən olunması və siyasi cəhətdən möhkəmləndirilməsi uğrunda aparılan gərgin mübarizələrin nəticəsi olaraq əldə edilmişdir. Bu, yəni Qars müqaviləsinin müddəaları sonrakı tarixi mərhələlərdə ölkəmizin ermənipərəst sovet rejiminin məkrli təcavüzkar siyasətindən xilas olunmasının təmin edilməsi üçün də həlledici amilə çevrilmişdir. Bu mənada sülh və təhlükəsizliyə təminat verən Qafqaz coğrafiyasında və Anadoludakı bütün xalqların sabitlik və əmin-amanlıq, qarşılıqlı əməkdaşlıq şəraitində yaşamasını təmin edən Qars beynəlxalq müqaviləsi böyük tarixi əhəmiyyət kəsb edir.



Qars müqaviləsində Azərbaycanın tərkibində Naxçıvan Muxtar Respublikasının ərazisi və sərhədləri də müəyyən olunmuş və həmin sərhədlərin toxunulmazlığı konkret maddələrdə ifadə edilən hüquqi müddəalarla möhkəmləndirilmişdir. Əhəmiyyətli cəhətlərdən biri də ondan ibarətdir ki, Qars müqaviləsi ilə Azərbaycanın tərkibində Naxçıvan Muxtar Respublikasının ərazi bütövlüyünün toxunulmazlığına Türkiyə Cümhuriyyətinin cavabdehlik daşıması təsbit olunmuşdur. Beləliklə, Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasının yaradılması, ərazisinin müəyyən edilməsi və hüquqi təminatı məsələləri beynəlxalq müqavilələrlə təsdiq olunmuşdur. Qars müqaviləsi müddət olaraq həmişəlik bağlanmış və region dövlətlərinin rəsmi nümayəndələrinin imzaları ilə təsdiq edilmişdir. Beynəlxalq qaydalara görə, bu müqavilə yalnız mətndə imzaları olan beş dövlətdən üçünün etiraz etdiyi təqdirdə ləğv edilə bilər. Ona görə də Ermənistan tərəfin Qars müqaviləsinin ləğv edilməsi üçün etdiyi mənasız və qanunlara zidd səylərin heç bir hüquqi əsası yoxdur. Çünki Azərbaycanla birlikdə Türkiyə Cümhuriyyətinin Ermənistana "hə" deyəcəyi mümkünsüz olduğu kimi, çox böyük strateji əhəmiyyətə malik iqtisadi layihələrdə ölkəmizə ortaq olan Gürcüstan Respublikasının da regionda sabitlik və əməkdaşlıq baxımından daha səmərəli yol axtarmaq xülyasına düşəcəyi heç bir baxımdan ağlabatan görünmür.

Bundan başqa, regionda ümumi maraqları olan Rusiya Federasiyası üçün də Azərbaycan Respublikası kimi əhəmiyyətli bir tərəfdaşı uzaqlaşdırmaq sərfəli deyildir. Bütün bunlara görə Qars müqaviləsinin müddəalarının nəzərə alınması bundan sonrakı dövrlərdə də region dövlətlərinin mütləq əksəriyyəti üçün gərəklidir. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri vəzifəsində işlədiyi zaman Türkiyə Cümhuriyyətinin dövlət başçıları ilə rəsmi danışıqlar apararaq, müasir dövrdə Qars müqaviləsini yenidən region dövlətlərinin diqqət mərkəzinə çəkməsi müqaviləyə imza atmış ölkələrin maraqları ilə üst-üstə düşmüş və obyektiv reallıq kimi qəbul edilmişdir.

Azərbaycan Sovet Sosialist Respublikasının tərkibində Naxçıvan Muxtar Respublikası 67 il səmərəli şəkildə fəaliyyət göstərmiş, burada imkan daxilində sosial-iqtisadi, elmi-mədəni sahələrdə müəyyən inkişafa nail olunmuşdur. Bununla belə, sovet hakimiyyəti illərində də Naxçıvan Muxtar Respublikası Kremldə özünə müəyyən mövqe qazanmış erməni millətindən olan təmsilçilərin və onlara dəstək verən sovet rəhbərlərinin təzyiqləri ilə üzləşmişdir. Lakin ən müxtəlif səbəblərdən, xüsusən də sovet rejiminin sərt totalitar prinsiplərinə görə muxtar respublikanın rəhbərliyi yox, ziyalıların səyləri və yerli əhalinin vətənpərvərliyi sayəsində Ermənistan tərəfinin Naxçıvan Muxtar Respublikasının ərazisindən torpaq qoparmaq cəhdləri baş tuta bilməmişdir.

XX əsrin ortalarında sovet dövlətinin rəsmilərinin ermənilərin Naxçıvana qarşı növbəti ərazi iddialarına müsbət yanaşma meyilləri müşahidə olunarkən 1957-ci ildə Azərbaycan Elmlər Akademiyasında keçirilmiş bir yığıncaqda Azərbaycan Dövlət Universitetinin müəllimi, Naxçıvan torpağının yetişdirməsi Abbas Zamanovun gözlənilmədən çıxış edərək bu məsələyə kəskin etirazını bildirməsi nəinki respublika partiya rəhbərliyində, həm də Sovetlər İttifaqının yüksək siyasi dairələrində böyük narahatlıq doğurmuşdur. Abbas Zamanov ali məktəbdəki vəzifəsindən çıxarılsa da və kommunist partiyasının sıralarından azad edilsə də, mövqeyindən dönməmişdir. Bir az sonra Kreml həmin məsələni yenidən gündəliyə gətirdikdə, xüsusən qaniçən erməni cəlladı, Türkiyə dövlətinə xəyanət etmiş, Stepan Şaumyanın diktəsi ilə Naxçıvanda və



> Prezident İlham Əliyevin böyük uğurla həyata keçirdiyi regionların sosial-iqtisadi inkişafı üzrə Dövlət Proqramı əsasında Naxçıvan Muxtar Respublikasının hərtərəfli inkişafına xüsusi diqqət göstərilir. Yüksək dövlət qayğısı strategiyasının işığında Naxçıvan böyük sürətlə, hərtərəfli şəkildə inkişaf edərək ölkəmizin ən inkişaf etmiş regionlarından biri səviyyəsinə çatmışdır. Muxtar Respublikada ardıcıl olaraq həyata keçirilən möhtəşəm quruculuq prosesləri müstəqil Azərbaycanın yeni Naxçıvanını meydana çıxarmışdır.

Azərbaycanın digər ərazilərində günahsız insanların faciəli surətdə ölümünə bais olmuş satqın Andronikin yuxarı dairələrdə 100 illiyinin qeyd edilməsi, ona heykəl qoyulması təşəbbüsləri səsləndikdə Naxçıvan Muxtar Respublikasında rəsmi dövlət vəzifələrində çalışan tarix elmləri namizədi Əli Əliyev əvvəlcə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinə, sonra isə Sovetlər İttifaqının rəhbərliyinə etiraz məktubları ünvanlamışdır.

Əli Əliyevin 1 mart 1966-cı il tarixində Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin ideologiya şöbəsinə göndərdiyi məktubdakı vətəndaş mövqeyini ifadə edən aşağıda qeyd edilən sərt fikirlər öz əksini tapmışdır: *"İzvestiya" qəzetinin 16 yanvar tarixli nömrəsinin "Sonuncu gün" bölməsində Marietta Şaginyanın (yazıçı, Lenin mükafatı laureatı - İ.H.) "Volqa" ilə Fransanı dolaşarkən" sərlövhəli məqaləsi verilmişdir. Məqalə müəllifi general Andronikin Parisdən Per-laşez qəbiristanlığındakı heykəlini David Sasanskiyə qoyulmuş abidə ilə müqayisə etmişdir. ...Hamıya məlum olduğu kimi, general Andronik təpədən-dırnağa qədər bolşevizmin düşməni, əksinqilabi "Daşnaksütyun" partiyasının... üzvü olmuşdur. ...Andronik İran-Türk cəbhəsindən geri çəkilərkən 1918-ci ilin iyun-iyul aylarında Naxçıvan diyarında dinc əhalini didərgin salıb, qırıb-çatıb, talan edibdir. O, qadınları, uşaqları və qocaları da odlara yaxıb, qılıncdan keçiribdir... Salınmış qanlı nifaq, Andronik tərəfindən.... diyarın dinc əhalisinə qarşı törədilmiş fiziki cəhətdən məhvetmə halları haqqında mən bu ilin 28 yanvarında yazdığım məktubda "İzvestiya" qəzetinin redaksiyasını və Marietta Şaginyanı məlumatlandırmışam... Çox təəssüf edirəm ki, əksinqilabçı Andronikin mədh edilməsinə qarşı mənim bu etirazıma dair heç bir cavab almamışam. Sizə müraciət edərək xahiş edirəm ki, Marietta Şaginyanın general Androniki xalq qəhrəmanı ilə müqayisə etməsinin düzgün olub-olmamasına aydınlıq gətirəsiniz.*

*Mənim fikrimcə, ən yaxşısı budur ki, açıq-aşkar etiraf edilsin: Andronik xalq qəhrəmanıdır, yaxud düşmən ünsürlərlə, ingilis-amerika imperialistləri ilə əlbir olan bolşevizm düşmənidir. Əks təqdirdə anlaşılmazlıqlar yaranır".*

Tanınmış Azərbaycan ziyalıları Abbas Zamanov və Əli Əliyev kimilərin çıxışları və məktubları təsirsiz qalmamış, sovet rəhbərliyi Ermənistanın Naxçıvana qarşı əsassız ərazi iddialarından əl çəkməli olmuşdur. Azərbaycan Yazıçılar İttifaqının sədri Mehdi Hüseynlə xalq yazıçısı İlyas Əfəndiyevin bu barədəki söhbətlərini eşidib, sonralar qələmə alan xalq yazıçısı Elçinin qeydlərindəki aşağıdakı məqamlar bu gerçəkliyi bir daha təsdiq edir: "Bütün Azərbaycan o çıxışdan (A.Zamanovun Akademiyadakı çıxışından - İ.H.) danışırdı. Mənim yaxşı yadımdadır, həmin günlərdə bir axşam Mehdi Hüseyn bizə gəlmişdi, atamın iş otağında həmişəki kimi söhbət edirdilər. Və ədəbiyyat söhbətlərində maraqlı olduğum üçün mən də həmişəki kimi onların yanında oturub onlara qulaq asırdım. Mehdi Hüseyn dedi: Vəli (Azərbaycan KP MK-nın I katibi Vəli Axundov - İ.H.) deyir ki, Abbasın (Abbas Zamanovun - İ.H.) çıxışı gedib Xruşşova çatıb. Deyir, Mikoyan başda olmaqla, doğrudan da Naxçıvan məsələsini qaldırıblarmış. Təklifləri hələ qabaqlar Tevosyan (SSRİ Nazirlər Soveti Sədrinin müavini - İ.H.) hazırlayıbmış. Abbasın çıxışından sonra bu məsələni gündəlikdən çıxarıblar".

Sovet hakimiyyəti illərində Naxçıvan Muxtar Respublikasının inkişafında 1938-1953-cü illərdə fəaliyyət göstərmiş Cəlil Məmmədquluzadə adına Naxçıvan Müəllimlər İnstitutunun fəaliyyəti mühüm əhəmiyyətə malik olmuşdur. Muxtar respublikada ziyalı mühitinin formalaşmasında, regionun kadrlarla təmin olunmasında geniş imkanlar yaratmış bu ali təhsil ocağı Azərbaycan üçün də yeni nəsil vətənpərvər şəxsiyyətlər, görkəmli ziyalılar yetişdirmişdir. Böyük Vətən müharibəsində Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüş Nəcəfqulu Rəfiyev, Abbas Quliyev və Qəzənfər Əkbərov Naxçıvan Müəllimlər İnstitutunda təhsil almışdılar. Görkəmli Azərbaycan alimləri akademik Cəlal Əliyev, müxbir üzvlərdən Mustafa Hüseynov, Səfərəli Babayev, əməkdar elm xadimi, professor Yusif Seyidov, filologiya elmləri doktoru, professor Yavuz Axundlu, pedaqoji elmlər doktoru, professor İbrahim Mollayev, əməkdar müəllim, dosent Nəriman Orucəliyev və onlarla başqa tanınmış alimlər, maarifçi ziyalılar Azərbaycan miqyasında ad-san qazanmış, elm və təhsil yollarında şərəflə xidmət göstərmişlər. Bir qədər fasilədən sonra, 1967-ci ildə yaradılmış Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Naxçıvan filialı və onun bazasında təşkil edilmiş Naxçıvan Dövlət Universiteti muxtar respublikada elmi-maarifçi ənənələri uğurla davam və inkişaf etdirmişdir. Eyni zamanda, diyarda mədəni mühitin inkişafında Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrının mühüm xidmətləri var.

> Ali Baş Komandan İlham Əliyevin müəyyən etdiyi ordu quruculuğu istiqamətində görülmüş genişmiqyaslı işlər Naxçıvanı düşmən sərhədində alınmaz qalaya çevirmişdir. Əlahiddə Naxçıvan Ordusunun 2018-ci ilin may ayında böyük uğurla həyata keçirdiyi hərbi əməliyyatlar nəticəsində çox mühüm strateji əhəmiyyətə malik olan Qızılqaya zirvəsinin və Yastan yüksəkliyinin alınması, on bir min hektar ərazinin işğaldan azad edilməsi müstəqillik dövrü Azərbaycan hərb tarixinin möhtəşəm hadisəsidir.

*Məlum olduğu kimi, Naxçıvan Muxtar Respublikası ölkəmizin dövlət müstəqilliyi uğrunda apardığı mübarizəyə də böyük töhfələr vermişdir.* Belə ki, 1990-cı ildə qanlı yanvar hadisələri zamanı erməni-bolşevik təcavüzünə etiraz əlaməti olaraq Naxçıvan Muxtar Respublikası Ali Sovetinin SSRİ-nin tərkibindən çıxmaq haqqında çıxardığı və on gündən çox həyata keçirdiyi qərar Azərbaycanın müstəqillik taleyində mühüm əhəmiyyətə malik olan böyük tarixi hadisədir. Xüsusən Azərbaycan Sovet Respublikasına uğurla rəhbərlik etmiş, SSRİ adlanan dövlətin Siyasi Bürosunun üzvü və əsas rəhbərlərindən biri olmuş görkəmli dövlət xadimi Heydər Əliyevin taleyin hökmü ilə Naxçıvanda yaşaması, tarixin ən məsuliyyətli dövründə Naxçıvan Muxtar Respublikası Ali Məclisinə rəhbərlik etməsi burada mövcud erməni təcavüzünün qarşısını almış, ərazi bütövlüyünü və Azərbaycanın tərkibində muxtar respublikanın daha da möhkəmləndirilməsini təmin etmişdir.

*Ulu öndər Heydər Əliyevin Naxçıvan Muxtar Respublikasında həyata keçirdiyi tədbirlər Azərbaycanın müstəqillik tarixinin şanlı-şərəfli səhifələrini təşkil edir.* Azərbaycan SSR Ali Sovetinin və Naxçıvan MR Ali Sovetinin deputatı Heydər Əliyevin sədrliyi ilə Naxçıvan Muxtar Respublikası Ali Sovetinin 17 noyabr 1990-cı il tarixli iclasında Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağının respublikanın rəsmi dövlət rəmzlərindən biri kimi qəbul edilməsi haqqında qərar verilməsi və elə həmin gün Naxçıvan Ali Sovetinin üzərindəki Sovet bayrağının həmin bayraqla əvəz edilməsi müstəqillik ərəfəsinin nadir tarixi hadisəsidir. Hələ SSRİ-nin mövcud olduğu bir şəraitdə, dövlət müstəqilliyinin qazanılmasından on bir ay qabaq baş vermiş bu hadisə nəinki Azərbaycanda, geniş mənada keçmiş sovet respublikaları miqyasında zamanı qabaqlayaraq dövlət müstəqilliyi uğrunda mübarizənin paroluna çevrilmişdir.

Eyni zamanda, Naxçıvan MSSR Ali Sovetinin adından "Sovet Sosialist" sözlərinin çıxarılması və "Ali Sovet" ifadəsinin "Ali Məclis" sözləri ilə əvəz edilməsi haqqındakı qərarlar mahiyyət etibarilə Sovetlər İttifaqından imtina etməyə hesablanmış böyük tarixi çağırışlar idi. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə SSRİ-nin saxlanmasına dair referendumda muxtar respublika əhalisinin iştirak etməməsi o zamanın Azərbaycan rəhbərliyinin mərkəzi hökumət qarşısındakı itaətkar mövqeyinə vurulan zərbə, Sovet İttifaqı rəhbərlərinə isə xalqımızın müstəqillik uğrunda dönməz mövqeyi haqqında ciddi mesaj kimi səslənmişdir. Sovet ordusu hissələrinin dinc yolla və bütün hərbi texnikasını və sursatlarını yerli qoşun birləşmələrinə təhvil verməklə Naxçıvan Muxtar Respublikası ərazisindən çıxarılması məhz möhkəm iradəyə və zəngin təcrübəyə, həm də böyük nüfuza malik olan Heydər Əliyev siyasətinin tarixi nailiyyətlərindən biri idi.

Azərbaycan ərazilərində, xüsusən Dağlıq Qarabağ kimi münaqişə zonasında Azərbaycan rəhbərliyinin ayrı-ayrı partizan dəstələrinin əlində oyuncaq olduğu bir zamanda Heydər Əliyevin regionun ərazi bütövlüyünü qorumaq və müdafiəsini təşkil etmək məqsədilə Naxçıvan MR Dövlət Müdafiə Komitəsi yaradaraq, vahid ordu siyasətini həyata keçirməsi müstəqil dövlətimiz üçün mühüm bir örnək idi.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyevin region dövlətləri ilə yaratdığı yeni və etibarlı münasibətlər əslində müstəqil Azərbaycan dövlətinin həyata keçirməli olduğu mühüm vəzifələr idi. Görkəmli dövlət xadimi Heydər Əliyevin Türkiyə Cümhuriyyətinin və İran İslam Respublikasının rəhbərləri ilə keçirdiyi tarixi görüşlər, apardığı danışıqlar, əldə etdiyi razılaşmalar Naxçıvan Muxtar Respublikasının çətin blokada, ağır mühasirə şəraitindəki problemlərinin aradan qaldırılmasında və qarşılıqlı etimada əsaslanan ikitərəfli münasibətlərin formalaşdırılmasında mühüm rol oynamışdır.

Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin yaradılması ölkələrarası iqtisadi münasibətlərin tənzimlənməsinə böyük fayda vermişdir. Naxçıvan Muxtar Respublikasının Sədərək kəndi ərazisi ilə Türkiyə Cümhuriyyətinin Aralıq Dilucu məntəqəsi arasında "Həsrət körpüsü"nün açılması müstəqilliyin başlanğıc dövrünün əlamətdar tarixi hadisəsidir. Xalqın həm də "Ümid körpüsü" adlandırdığı Sədərək-Dilucu körpüsünün rəsmi açılışı mərasimidə görkəmli dövlət xadimi Heydər Əliyevlə Türkiyə Cümhuriyyətinin Prezidenti Süleyman Dəmirəlin nitq söyləmələri, aktual çağırışlar səsləndirmələri regionda beynəlxalq münasibətləri tənzimləyən, Azərbaycan Respublikasının rolunu və əhəmiyyətini müəyyən edən tarixi addımlar idi. Bu, Naxçıvanın blokadadan çıxarılması və inkişaf etdirilməsi baxımından çox zəruri hadisə kimi qiymətləndirilməyə layiqdir.

Nəhayət, Naxçıvan MR Ali Məclisinin Sədri Heydər Əliyevin 16 dekabr 1991-ci il tarixdə "Dünya Azərbaycanlılarının Həmrəylik Günü haqqında" imzaladığı sərəncamla müxtəlif qitələrdə yaşayan soydaşlarımızla, onların vasitəsi ilə dünya ölkələri ilə əlaqələrimizin qurulmasına start verilmişdir. Azərbaycan Respublikasının Prezidenti kimi də ulu öndər Heydər Əliyev 1993-2003-cü illərdə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi və mədəni inkişafına böyük qayğı göstərmişdir. Naxçıvanda Hərbi Məktəbin yaradılması və ordu quruculuğunun daha da inkişaf etdirilməsi həmin dövrün dövlət qayğısı sırasında xüsusi yer tutur.

Müasir mərhələdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin böyük uğurla həyata keçirdiyi regionların inkişaf etdirilməsi üzrə Dövlət Proqramı əsasında Naxçıvan Muxtar Respublikasının da hərtərəfli inkişafına xüsusi diqqət və qayğı göstərilir. Yüksək dövlət qayğısı strategiyasının işığında Naxçıvan Muxtar Respublikası böyük sürətlə, hərtərəfli şəkildə tərəqqi edərək ölkəmizin ən inkişaf etmiş regionlarından biri səviyyəsinə çatmışdır. Naxçıvan Muxtar Respublikasında ardıcıl olaraq həyata keçirilən möhtəşəm quruculuq prosesləri müstəqil Azərbaycanın yeni Naxçıvanını meydana çıxarmışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun böyük əzmlə və məsuliyyətlə həyata keçirdiyi islahatlar və diyarın hərtərəfli inkişaf proqramları yeniləşən Naxçıvanda müasir intibah mərhələsinin yaradılması ilə nəticələnmişdir.

Tarixən ziyalılar diyarı olmuş Naxçıvanda bu gün də elm, təhsil, ədəbiyyat və incəsənət ahəngdar şəkildə inkişaf edir. Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsi, Naxçıvan Dövlət Universiteti, Naxçıvan Universiteti, Naxçıvan Müəllimlər İnstitutu, Naxçıvan Dövlət Musiqili Dram teatrı, Naxçıvan Yazıçılar, Rəssamlar və Bəstəkarlar Birliklərinin səmərəli fəaliyyətinin təmin edilməsi Naxçıvanı ölkəmizin yeni elm və mədəniyyət mərkəzlərindən birinə çevirmişdir. Naxçıvanda məktəb tikintisinin başa çatdırılması, müasir məktəb komplekslərinin yaradılması, məktəb-muzey birgə interaktiv təhsil şəbəkəsinin formalaşdırılması maarifçilik hərəkatının genişlənməsinə və mühüm nəticələrin əldə olunmasına şərait yaratmışdır. Hazırda Naxçıvan Muxtar Respublikasının ümumtəhsil məktəbləri ali məktəblərə qəbul səviyyəsinə görə respublika üzrə ön sıralarda dayanır. Hazırda muxtar respublikanın bütün ərazisində genişzolaqlı internetdən istifadə olunmasının təmin edilməsi də müasir inkişafa xidmət edir. Naxçıvan şəhərində və rayonlarda yaradılmış muzeylərdə göstərilən xidmət tarixi yaddaşla yeni milli mədəniyyət təfəkkürünün sintezinə və vəhdətinə təkan verir.

Bu gün Naxçıvan Avtomobil Zavodunda istehsal olunan Lifan yük və minik maşınlarının, Naxçıvan mineral sularının, Naxçıvan duzunun, travertinin ölkə üzrə rəqabətədavamlı məhsullara çevrilməsi aparılmış məqsədyönlü sənayeləşdirmə siyasətinin bəhrəsidir. Naxçıvan Sement Zavodunun məhsullarının yerli tələbatı ödəməklə bərabər, həm də keyfiyyət nişanı ilə qonşu ölkələrə ixrac edilən məhsullar istehsal etməsi, xarici bazarda özünəməxsus yer tutması diyarda sənayeləşmənin müasir səviyyəsini nümayiş etdirir. Bütün bunların nəticəsidir ki, əldə olunan mühüm nəticələrə əsasən 2016-cı ildə Naxçıvan Muxtar Respublikası Azərbaycanın iqtisadi rayonları arasında birinci yeri qazanmışdır.

Dövlət başçımız, Ali Baş Komandan İlham Əliyevin müəyyən etdiyi ordu quruculuğu istiqamətində görülmüş genişmiqyaslı işlər Naxçıvanı düşmən sərhədində alınmaz qalaya çevirmişdir. Naxçıvanda Əlahiddə Ordunun yaradılması və inkişaf etdirilməsi müasir mərhələdə muxtar respublikanın erməni təcavüzündən qorunmasına, ərazi bütövlüyünün daha da möhkəmləndirilməsinə tam təminat verir. Əlahiddə Naxçıvan Ordusunun 2018-ci ilin may ayında böyük uğurla həyata keçirdiyi hərbi əməliyyatlar nəticəsində çox mühüm strateji əhəmiyyətə malik olan Qızılqaya zirvəsinin və Yastan yüksəkliyinin alınması, on bir min hektar ərazinin işğaldan azad edilməsi müstəqillik dövrü Azərbaycan hərb tarixinin möhtəşəm hadisəsidir.

Naxçıvan Muxtar Respublikasında yaradılan hərtərəfli şərait və müasir inkişaf burada ən yüksək səviyyədə beynəlxalq tədbirlərin keçirilməsinə tam imkan yaradır. Türk Dünyası Dövlət Başçılarının Zirvə Toplantısının 2009-cu ildə Naxçıvan şəhərində keçirilməsi bunun əyani sübutudur. 2018-ci ildə İslam Ölkələrinin Mədəniyyət paytaxtı səviyyəsində Naxçıvanda genişmiqyaslı elm və mədəniyyət tədbirlərinin təşkili muxtar respublikadakı yüksək inkişafın parlaq göstəricilərindən biridir. Naxçıvan şəhərinin həm də Gənclər Paytaxtı seçilməsi regionda müasirləşmə hərəkatının həyata keçirilməsində əldə olunan mühüm nəticədir. AMEA Naxçıvan Bölməsində, Naxçıvan Dövlət Universitetində, Naxçıvan Universitetində keçirilən beynəlxalq elmi konfranslar regionun, həm də ölkəmizin əsas elmi mərkəzlərindən birinə çevrildiyini təsdiq edir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Naxçıvan Muxtar Respublikasının siyasi-hərbi mövqeyi və əhəmiyyətinə, müasir inkişafına yüksək qiymət vermişdir. Naxçıvan Muxtar Respublikasının yaradılmasının Azərbaycanın siyasi tarixinin mühüm əhəmiyyətə malik hadisəsi hesab edən Prezident İlham Əliyevin aşağıdakı sözləri ölkəmizin tarixi taleyində və müasir inkişafında Naxçıvan Muxtar Respublikasının yerinə, mövqeyinə və hərtərəfli inkişafına dövlət başçısı səviyyəsində verilmiş yüksək qiymətin ifadəsidir: "Milli istiqlaliyyət yolunda Naxçıvanın atdığı cəsarətli addımlar bütün Azərbaycan xalqı tərəfindən rəğbətlə qarşılanmış, respublikada cərəyan edən ictimai-siyasi proseslərə öz müsbət və həlledici təsirini göstərmişdir. Naxçıvan Muxtar Respublikası bu gün milli dövlət quruculuğu prosesinin fəal iştirakçısı olub, ölkəmizin iqtisadi qüdrətinin artırılması və intellektual potensialının gücləndirilməsinə dəyərli töhfələr verir".

*Azərbaycanın Nəqşi-cahanı olan Naxçıvan Muxtar Respublikası muxtariyyat tarixinin 95 illiyini doğma Vətənimizə və xalqımıza qazandırdığı böyük nailiyyətlərlə qeyd edir. Azərbaycan Respublikasının üzvi tərkib hissəsi olan Naxçıvan hər gün tikilib qurularaq, ucalıb inkişaf edərək, böyük sabahlara doğru inamla yol gedir.*

*Uğurlar olsun!*

**İsa Həbibbəyli,**
***AMEA-nın vitse-prezidenti, Milli Məclisin Elm və təhsil komitəsinin sədri, akademik***




● Bahar bərəkətini qışdan alır

# Türk mifoloji təfəkküründə Xıdır Nəbi bayramı

**Türksoylu xalqların mifik düşüncəsində təbiətin oyanışını müjdələyən, yazın, yaşıllığın səbirsizliklə gözlənilməsini tərənnüm edən, bolluq, bərəkət, firavanlıq inanclarının rəmzi kimi uzun əsrlər boyu yurdumuzda keçirilən bayramlardan biri "Yazağzı Xızır", "Xıdır Nəbi", "Xıdır İlyas", yaxud "Qışyarısı" bayramıdır. Bu bayram tarixən əsasən Kiçik çillənin hökm sürdüyü ərəfədə, daha doğrusu, fevralın ilk ongünlüyündə, təqribən fevralın 9-11-ci günlərində keçirilmişdir.**



Xıdır Nəbi bayramının başlıca iştirakçısı olan Xıdır və ya Xızır əski türk mifoloji təsəvvürlərində ölüb-dirilən, zülmət dünyasından əbədi həyat bəxş edən dirilik suyunu tapıb içən və ölməzlik qazanan bir obrazı simvolizə edir. Türk mifik qaynaqlarında Xızır Yer, Su, Umay kimi bir vəli (övliya), yaxud hami ruh statusuna malik varlıq kimi səciyyələndirilir.

Xıdır Nəbi bayramının mifik rəmzi olan Xıdır, yaxud Xızır barədə islam qaynaqlarında müxtəlif mülahizələr söylənilir. Bəzi mənbələrə görə, hətta Xızırın məzarının bir neçə yerdə olması, yaxud onun əbədiyaşarlığı haqqında fikirlərə də rast gəlmək mümkündür. Bu obraz xalq tərəfindən sevilmiş və onun haqqında müxtəlif əfsanələr, rəvayətlər dolaşmışdır. Rəvayətlərdən birində deyilir ki, "Xızır və İlyas iki qardaş olmuşdur. Makedoniyalı İsgəndər Zülqərneyn bu qardaşlarla birlikdə "abi-həyatı" - dirilik suyunu tapmaq üçün qaranlıq dünyaya səfər edir, müəyyən müddət keçəndən sonra qaranlıq dünyada fırtına qopur və onların hərəsi bir tərəfə düşüb dirilik suyunu axtarmalı olurlar. Xızır suyun üzündə, İlyas isə quruda gəzib-dolaşır. Bir gün qardaşlar rastlaşır və "abi-həyatı" birlikdə axtarmağa başlayırlar. Yorulub əldən düşəndə dincəlmək üçün su kənarında dayanırlar. Quru balığı təmizləmək üçün suya salarkən balıq dirilir. Qardaşlar bunun axtardıqları dirilik suyu olduğunu bilir, həmin sudan doyunca içib əbədi həyat qazanırlar. Makedoniyalı İsgəndər Zülqərneyn isə nə qardaşları, nə də dirilik suyunu tapa bilir, qeybə çəkilir".

İnanca görə, Xıdır Nəbi mərasimi hər evdə, hər ailədə qeyd olunmalı, Xıdırın şərəfinə məclis qurulmalı, süfrələr açılmalıdır. Əgər hər hansı bir evdə həmin gün süfrə açılmazsa, Xıdır küsüb gedəcək, baharın gəlişini yubadacaqdır. Mərasimin əsas atributlarından biri qovutdur, buğda qovrulub qovut çəkilir və süfrəyə qoyulur. Erkən etiqadlara görə, Xıdır əlini qovuta çəkir, bununla da Yer üzünə özü ilə bolluq, bərəkət, xoşbəxtlik gətirir.

Xıdır Nəbi mərasiminin digər atributları Su və Torpaqdır. İnanca görə, Boz atlı Xıdır Nəbi təbiəti, torpağı ağ örpəyə bürüyür, onun atının dırnağı torpağa dəyəndə insanlar ilboyu quraqlıqdan əziyyət çəkmir. Xıdır Nəbi mərasimi üç gün davam edir, mərasimin birinci günü Xan Xıdır, ikinci günü Rəiyyət Xıdır, üçüncü günü isə Çillə Xıdır kimi qeyd olunur. Azad Nəbiyevə görə, bu mərasim erkən əkinçilik təsəvvürləri ilə bağlı yaranan Novruzqabağı mərasimlərə daxildir. Mərasimin birinci günündə torpaq üzərində od, ocaq qalayardılar, ikinci gün əkinə yarayan hər öküzün adına üç duzsuz kömbə bişirib öküzlərin qarnının altından diyirlədib belə oxuyardılar:

*Xıdır Nəbi, Xıdır İlyas,*
*Bitdi çiçək, oldu yaz!*

Üçüncü gün cütçü və əkinçiləri tərif edərdilər. Bu zaman Xıdır Nəbinin əlində məşəl olacağı təsvir edilir, gəlişi ilə torpağa, elə-obaya istilik, sağlamlıq gətirəcəyinə ümid bəsləyərdilər. Mərasim zamanı "Xıdırçılar" sübh tezdən əkin yerlərinə gedib Xıdır Nəbini "axtarardılar".

Xıdır Nəbi mərasiminin əsas amalı insanların qışdan salamat çıxmasını, üzləşdikləri çətinliklərə sinə gərməsini, yazın gəlişini gözləməsini əks etdirməkdir.

Xıdır Nəbi mərasimilə bağlı folklor mətnləri xalq arasında bugünümüzədək qorunub saxlanılıb, onlardan birinə diqqət yetirək:

*Xıdır, Xıdır xıd gətir,*
*Dağ-dərədən od gətir.*
*Mən Xıdırın nəyiyəm,*
*Bircə belə dayıyam,*
*Ayağının nalıyam,*
*Başının torbasıyam.*
*Xıdıra Xıdır deyəllər,*
*Xıdıra çıraq qoyallar,*
*Xıdır Nəbi, Xıdır İlyas,*
*Bitdi çiçək, oldu yaz.*
*Mən Xıdırın quluyam,*
*Boz atının çuluyam...*

Xızır, yaxud Xıdır sözlərinin etimologiyası ilə bağlı maraqlı fikirlər var, məsələn, Mirəli Seyidova görə, "Xızır" türkdilli xalqların sözüdür və yazın istisini, hərarətini, odunu, qüvvəsini, gətirən kişi, qəhrəman deməkdir. Türk xalqları arasında "xız-qor, alov, ir-ər" isə insan mənalarını ifadə edir, bəzən də "oyanıb ayağa qalxmış insan" mənasında qəbul edilir. Həmçinin bəzi ensiklopedik lüğətlərdə "yaşıl" mənasını ifadə edən ərəb mənşəli söz kimi təqdim olunur.

Xıdır Nəbi bayramında əcdadlarımız havaların tədricən yumşalması, sərt, soyuq qışın getdikcə başa çatması ümidi ilə Xızırı layiqincə qarşılamaq, bir-birinə kömək etmək, paylaşmaq amalı ilə bayram tədbirləri keçirərdilər. Bu bayramda müqəddəs Xızıra belə müraciətlər olunurdu:

*Xızır baba çıx çölə,*
*Od gətir bizim elə...*

Əski mifoloji təsəvvürlərə görə, Xızır bu müraciətləri eşidəcək, səmada "Xızır yolu" açılacaq və müqəddəs Xızır Boz atının belində əlində "od butası" ilə birlikdə Yerə enəcək və insanların arzularını yerinə yetirəcək, onlara sağlamlıq, səadət və xoş həyat bəxş edəcək, hər evdə onun üçün ayrılmış nemətlərin üzərində iz qoyub yenidən səmaya qalxacaqdır. Erkən inanca görə, Xızırın gəldiyi "Xızır yolu"nu görənlərin bütün arzu-istəkləri yerinə yetərmiş. Qədim adətə görə, "Xıdır Nəbi" bayramı günü heç kim işləməməli, əziyyət çəkməməlidir. İnanca görə, hər evdə ailə başçısı sübh tezdən yüksək bir yerdə qoyulmuş un və ya qovut üzərində "iz" görərsə, deməli, gecə Xızır gəlib və mübarək izini həmin una, qovuta çəkmiş, beləliklə də özü ilə xeyir, bərəkət, xoşbəxtlik gətirmişlər. Həmin undan, qovutdan bir qədər götürüb səpin vaxtı buğdaya qarışdırıb səpmək üçün saxlayarmışlar ki, Xızırın xeyir-duası ilə torpaq bərəkətli olsun. Bu bayram gecəsində otların üzərinə düşmüş şehdən xəmir yoğrularmış ki, bu da bolluq-bərəkətə yozularmış.

Əski məxəzlərə görə, Xıdır Nəbi bayramında icra olunan ayinlər arasında buğdaya həsr olunmuş "güligəndum" adlı arxaik bir ritual diqqəti xüsusilə cəlb edir. Bu ayin bilavasitə buğdanın torpağa səpilməsi, taxılın yetişdirilməsi və biçinilə bağlı görülən işlərin ümumi məzmununu əhatə edir. Bu ayinin icrası zamanı Xızırın səmadan Yerə enib taxıla əl basması digər inamlarla paralellik təşkil edir.

Təsadüfi deyildir ki, İslam qaynaqlarında Xızırın şəxsiyyəti ilə bağlı fikirlər arasında Xızırın ibtidai dinlərdə bitki Tanrısı kimi qəbul edilməsi də yer almışdır.

Araşdırmalar nəticəsində Xızır bir kult olaraq türk təfəkkürünün məhsulu kimi dəyərləndirilmişdir. Ölüb-dirilmə hadisəsi ilə bağlı olan Xızır tanrıçılıq görüşlərinin əsasında yaranan obrazdır.

Şərq - İslam dini sistemində Xızır dirilik suyunu içdiyinə görə peyğəmbər statusu qazanmışdır. Hətta İslamda onun Məhəmməd peyğəmbər (s.ə.s.) və Həzrət Əli ilə görüşməsi haqqında müxtəlif mülahizələr də vardır. 1647-ci ildə Azərbaycana gələn türk səyyahı Övliya Çələbi Xıdır-Zində pirini ziyarət etdikdən sonra "həmin türbədə yatan Xızırın bədəninin təzəliyinin hələ də qorunduğunu" qeyd etmişdir. 1858-1859-cu illərdə Qafqaza gəlmiş fransız yazıçısı Aleksandr Düma da həmin türbəni ziyarət etmiş və onu şirvanlıların müqəddəs hesab etdikləri bir ziyarətgah olduğunu yazmışdır.

Mənbələrə görə, hər 500 ildən bir Xızırın cismi yenilənir, təzələnir, o yaşıl geyimdə, boz at belində səma məclislərinə qoşulan bir obraz kimi təsvir edilir.

Türk xalq inanclarında Xızırla bağlı çoxsaylı mətnlər vardır ki, onların əksəriyyətində Xızır çətinlikdə qalmış insanları dardan qurtaran mübarək üzlü xeyirxah bir varlıq kimi təqdim edilir.

M.Təhmasibə görə, "hətta Xəqaniyə, Nizamiyə yol göstərən, Xətainin əlindən tutan, Füzuliyə ilham və təxəllüs verən də Xızır övliyadır".

Xızır, yaxud Xıdır obrazı, həmçinin Novruz çərşənbələrində mifoloji təsəvvür və süjetlərdə iştirak edən xeyirxah bir varlıq olaraq diqqəti cəlb edir.

Qışın oğlan çağı sayılan Kiçik çillənin ortalarında keçirilən Xıdır Nəbi bayramında "Xızır süfrəsi" açılar, müxtəlif xəmir xörəkləri bişirilərdi. Əski inanclara görə, "Xızır gəlsin ocağına, şadlıq versin bucağına" deməklə bayrama hazırlıq görülər, xüsusən də Xıdır Nəbi günlərində səməni bişirilərdi. Bayramda adətə görə, oğlan evindən qız evinə "Xızır xonçası" gedərdi. Bu bayram qədim türk mifik düşüncəsində mövsüm mərasimləri arasında məhz Kiçik çillə dövründə keçirilən, təbiətin oyanmasını, Günəş və istilik etiqadlarına bağlı olan böyük bir mərasim kompleksidir.

Təqdirəlayiqdir ki, qədim tarixi köklərə malik Xıdır Nəbi bayramı çağdaş dövrdə həm Azərbaycanın müxtəlif bölgələrində, Naxçıvanda, həm Cənubi Azərbaycanda yaşayan həmvətənlərimiz, həm də Anadolu türkləri tərəfindən qeyd olunur. Bu qədim bayram Təbrizdə "Nəbi bayramı" adı altında keçirilər, "girdə" çörəyi xüsusi olaraq bayram süfrəsi üçün hazırlanardı. Anadoluda fevralın ortalarında "Xızır Cəmi", yaxud "Cəmrə", may ayının 5-6 da isə "Xızırəlləz" mərasimləri xüsusi təmtəraqla keçirilir.

Göründüyü kimi, Xıdır Nəbi bayramı yazın gəlişini müjdələyən, erkən əkinçilik inanc və etiqadları ilə zəngin olan, türk mifik təfəkkürünün ulu qaynaqlarından xəbər verən arxaik mövsüm mərasimlərinin toplusu kimi çağdaş dövrümüzdə də öz aktuallığını itirməmiş və əbədiyyət qazanmışdır.

***Ülkər NƏBİYEVA,***
***Bakı Dövlət Universitetinin professoru, filologiya üzrə elmlər doktoru***

● Çillələr



# Böyük çillənin kiçik "qardaşı"

**İndi folklorumuzda çox zaman Böyük çillənin dəli-dolu qardaşı kimi bəhs olunan Kiçik çillənin dövranıdır. Qədim zamanlardan vaxtı təbiətin dəyişimləri ilə hesablayan Azərbaycan xalqı qış fəslinin də özünəməxsus təqvimini yaratmışdı. Bu fəsli üç yerə bölüb, ilkinə Böyük çillə deyirdilər.**

Dekabrın 21-dən 22-nə keçən gecə qışla birlikdə gələn çillələrin böyüyünün ömrü 40 gün çəkir. Yanvarın 31-dən fevralın 1-nə keçən gecə Kiçik çillə başlayır. 20 gün sonra isə növbə Ala çillə, Ala-çalpov da deyilən Boz aya çatır. Boz ayın biraylıq ömrü isə martın 20-də baharın gəlişi ilə bitir.

### "Qışın oğlan çağı"

"Çillə" sözünün ümumilikdə ağrı, acı, əzab demək olduğu bildirilsə də, qədimdə insanlar iki çilləyə eyni münasibət göstərmirdilər. Ömrünün uzunluğuna, qarla, şaxtayla gəlməsinə baxmayaraq, Böyük çillədən Kiçik çillə qədər ehtiyat etmir, çəkinmirdilər. Birincinin daha rəhmli olduğu folklor nümunələrimizdən birində belə əksini tapıb:

*Böyük çillə*
*Boyu bir belə,*
*Gəldi elə*
*Gülə-gülə,*
*Getdi gülə-gülə.*

Bir əlində qılınc kimi şaxta, bir əlində çovğun, boran, hirslə, hikkə ilə gələn Kiçik çilləyə isə belə söz qoşurdular:

*Kiçik çillə*
*Boyu bir belə,*
*Hikkəsi bir belə.*
*Gəlişi oldu*
*Hayınan,*
*Gedişi oldu*
*Vayınan.*

Mərasim nəğmələrindən birində insanlara çox da ziyan gətirmədiyinə görə Böyük çillənin şəninə xoş sözlər söylənilir:

*Böyük çillə, nar çillə,*
*Ağ gül üstə qar çilə.*
*Buğdalara yorğan ol,*
*Bağçalara bar çilə.*

Kiçik çilləni isə daha sərt, amansız hesab edərək deyirdilər:

*Kiçik çillə, vay çillə*
*Qarlı, dumanlı çillə.*
*Gəbə, kilim toxuduq,*
*Cəhrəmizdə var çillə.*

Xalq arasında belə bir rəvayət dolaşır: "Böyük çillə ömrünü başa vurub geri qayıdanda yolda Kiçik çillə ilə qarşılaşır. Kiçik çillə Böyük çillədən soruşur: "Nə etdin?" Böyük çillə cavab verir: "Tayaları yarıladım, qovurma küpəsinin başını endirdim, qalaqları sökdürdüm". Kiçik çillə ona gülüb deyir: "Mən gedib unluqları, ot tayalarını yox edəcəyəm, qalaqları yandırıb göyə sovuracağam, gəlinlərin əlini xəmir təknəsində donduracağam".

Kiçik çillə soyuqluğu və tufanı ilə özündən əvvəlki və sonrakı çillələrdən seçilir. Ömrü digərlərindən az olsa da, qış fəslinin çovğunlu, dondurucu çağı onun payına düşür. Elə sərtliyinə görə, xalq arasında Kiçik çilləyə çox zaman "qışın oğlan çağı" da deyirlər.

### Xeyir-bərəkət bayramı

Xalqımız qədim zamanlardan bugünədək Böyük çillədə olduğu kimi, Kiçik çillədə də bayram keçirir. Əski inanclara görə, Kiçik çillə yarı olanda Xıdır Nəbi mərasimi qeyd edilir. Folklorşünaslar bu mərasimin, demək olar ki, hər yerdə oxşar olduğunu bildirirlər. "Azərbaycan etnoqrafiyası" kitabındakı "Novruz bayramı" məqaləsində Kiçik çillənin (fevralın) birinci ongünlüyünün "Xıdır Nəbi" adlandırıldığı, bu dövrün qışın ən sərt, çovğunlu, boranlı keçdiyi bildirilir: "Xıdır girdi, qış girdi, Xıdır çıxdı, qış çıxdı" atalar sözü də məhz buradan yaranıb".

Xalqımızın Novruzqabağı mərasimləri olduqca maraqlı və zəngindir. Belə ki, Xıdır Nəbi bayramından sonra Yalançı çərşənbə, ardınca isə Xəbərçi çərşənbə və Boz ay gəlir. Novruzqabağı mərasimlər bir-birini əvəz edir.

### Al bayraqlı Yaz gəlir!

Toplanılan azuqə Kiçik çillədə tükənməyə başlayır. İlk gündən sərt üzünü göstərən Kiçik çillə, əslində, soyuğu, qar-çovğunu ilə bərabər, həm də buna görə insanları qorxudurdu. Sonunda, gethagetdə isə yenə tufan qoparır...

Qədimdə insanlar bu müddət sovuşanda sevinirdilər ki, üzüntülü soyuğu, dondurucu şaxtası, dəlisov küləkli Kiçik çillə başa çatdı. Böyük çillədə qış yuxusuna getmiş təbiət hələ yuxudan oyanmasa da, yaz gəlməsə də, daha qışdan qorxmurdular. Kiçik çillə günlərində, adətən bununla təsəlli tapırdılar ki, üzü yaza gedən qışdan qorxmağa dəyməz.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

### Çillə şərqisi

Qabağı yazdır çillənin,
Ömrü azdır çillənin.
Yer bürünür ağ qara,
Təslim olur bahara.
Ağ bayraqlı Qış gedir,
Al bayraqlı Yaz gəlir!
Nağılçılar xoş gedir,
Ozan, aşıq, saz gəlir!
Böyük çillə cıxmamış,
Kiçik çillə gəlməmiş;
Boz Ay çapır atını,
Bilir qışın zatını.
Bənövşə açıb gəlib,
Yatağı torpaq olur;
Çiçəyi yarpaq olur!
Xan çobanın arzusu,
Gəlir qumral quzusu!
Yağış ruzu gətirir,
Novruz gəlib yetirir!
Qüvvət dolur qollara,
Ellər çıxır yollara;
Durnaları gözləyir!
Bülbül gülü izləyir,
Şaxta, boran sovuşur!
Yer düzəldib qəddini,
Gözəl Yaza qovuşur!

***Əhməd CAVAD***

● Xalq təqvimi

# "Qış ötürür, yaz bitirir..."

**Xalq təqviminin meydana gəlməsində Azərbaycan ərazisinin coğrafi şəraiti, aranlı-dağlı relyefi, iqlimi, təbii sərvətləri mühüm rol oynamışdır.**



Ulu babalarımız əhatəsində olduğu sirli-sehrli aləmi həssaslıqla öyrənməklə günədlik təsərrüfat işlərini, məişət həyatını qurmağa çalışmış, zəruri maddi nemətlərin əldə olunmasına can atmış və onlardan səmərəli şəkildə bəhrələnmək imkanlarını artırmışlar.

Qədim azərbaycanlılar ili hər biri üç aydan ibarət olmaqla dörd dövrə, dörd fəslə - yaza, yaya, payıza (əvvəllər onu küz adlandırırdılar) və qışa bölmüş, bu fəsillərin də hər birinə təbiət səciyyəsi verərək "yaz bitirir, yay yetirir, payız götürür, qış ötürür" - demişlər. Hər fəsli, hər ayı da müxtəlif mərhələlərə bölüb, hər mərhələyə təbiət mövsümləri təsərrüfat işləri ilə bağlı adlar yaraşdırmışlar: əkin ayı, şum ayı, leysan ayı, ağlar-gülər ayı, ilin qızılgül dövrü, köç ayı, qoç ayı, biçin ayı, vay nənə ayı, suvarma ayı, qoradəyən ay, qorabişirən ay, quyruqdondu (quyruq doğdu), elqovan, qızıl payız, məhsul ayı, xəzan ayı, qırov düşən ay, Böyük çillə, Kiçik çillə, Ala-çalpov, Döl ayı və s.

Oğuz atalar sözlərində deyilir ki, "Oğuzdan 366 alp qopdu, 24 xas bəy, 32 səkcək". Burada ilin, gecə-gündüzü, ayların zamanına işarə edilir. Əski Oğuzlar təqvimlə bağlı bu astronomik hadisəni insanlaşdırmış, deyim şəklinə salmış və hər günü bir apl - igid saymışlar. 24 xas deməklə gecə-gündüzün 24 saatdan ibarət olduğunu bildirmişlər.

Belə anlayışlar Azərbaycan şifahi xalq yaradıcılığında da öz əksini tapmışdır:

*Babamın bir çuxası var, on iki cibi,*
*Cibin hər birində otuz düymə,*
*Hər düymənin bir üzü ağ, bir üzü qara.*

Nümunədəki 12 cib ilin 12 ayına, 30 düymə ayın günlərinə, hər düymənin ağ və qara üzü gündüz və gecəyə işarədir.

El-obada ilin dörd fəsli ilə bağlı belə bir tapmaca var:

*İrəlidən dörd qardaş gəlir;*
*Birinin beli bükülü,*
*Birinin əli belli,*
*Birinin əli güllü,*
*Biri də dilli-felli.*

Bu dörd qardaş qışa, yaza, yaya, bir də payıza işarədir. Göründüyü kimi, fəsillərin hər birinə əlamətlərin, kəsb etdikləri xüsusiyyətlərinə görə ad verilmişdir. Beləliklə, qədim azərbaycanlılar əzəli-əbədi dünyanın sirli-sehrli məqamlarını uzun müddət müşahidə edib keçirdiyi təcrübələr əsasında xalq təqvimini yaratmışlar.

***"Azərbaycan"***

### 2019-cu ildə fəsillərin Azərbaycana daxilolma vaxtları

Bu barədə Azərbaycan Milli Elmlər Akademiyasının N.Tusi adına Şamaxı Astrofizika Rəsədxanasının direktor müavini, fizika üzrə fəlsəfə doktoru Xıdır Mikayılov məlumat verib.

Bildirilib ki, yaz fəslinin ölkəmizə qədəm qoyması martın 21-də yerli vaxtla saat 01:58-ə təsadüf edəcək və gecə ilə gündüz bərabərləşəcək.

İyunun 21-də saat 19:54-də yay, sentyabrın 23-də 11:50-də payız, dekabrın 22-də 08:19-da isə qış fəsli ölkəmizə qədəm qoyacaq.

● Rəvayət

# Ömrün azdır, qarşıda yazdır...

**Çillələrlə bağlı bir çox rəvayətlər dildən-dilə keçərək bu günümüzədək gəlib çatıb.**

Deyilənlərə görə, "Qış" adlı bir kişinin Böyük çillə, Kiçik çillə, Boz ay adlı üç oğlu var imiş. Qış əvvəlcə ilkini - Böyük çilləni qırxgünlük səfərə göndərir ki, gedib el-obaları gəzsin, dünyaya tamaşa eləsin. Görsün nə var, nə yox, adamlar necə yaşayır, necə işləyirlər?

Böyük çillə altdan-üstən bərk geyindi. Ağ qar yapıncısını da çiyinlərinə salıb yola çıxdı. Az getdi, çox dayandı, çox getdi, az dayandı, axır ki, dekabrın iyirmisində gəlib el-obaya yetişdi. Adamlar səhər yuxudan oyanıb çölə baxanda gördülər ki, hər yan ağappaq qara bürünüb. O saat barmaqlarını dişlədilər ki, Böyük çillə gəlib çıxıb. Deməli, nə az, nə çox, düz qırx gün dağda-düzdə, kənddə-kəsəkdə öz qar atını belədən-elə, elədən-belə çapacaq. Nə etməli, Böyük çillənin qarından-soyuğundan qorxub evin bir küncünə çəkilmək olmazdı ki! Bəs onda iş-gücün qulpundan kim yapışsın?

Çuvalların, küpələrin, xaralların ağzı açıldı, təndirlər yandırıldı, kürsülər quruldu, buğda götürülüb, səməni göyərdildi. Göyərdilmiş səməni taxta çanaqda, tabaqda döyülüb suyu sıxıldı. Yeddi qonşu evdən un alınıb bu səməni suyunda sıyıq xəmir düzəldilir, iri tavada ocaq üstə qoyulur. Başlayırlar səməni halvası bişirməyə. Halva bişənə yaxın onun içinə badam, qoz ləpəsi də salınır. Yeddi qabda yeddi evə pay göndərilir.

Qışı qarşılama mərasiminə "Kövsəc", yolasalma mərasiminə isə "Çilləkəsdi" və ya "Çilləçıxartma" deyilmişdir.

***"Azərbaycan"***

## Göyçay Rayon İcra Hakimiyyəti
### *açıq tenderə dəvət edir*

**Tender 4 LOT üzrə keçirilir:**
**LOT 1.** Göyçay şəhərində abadlıq işlərinin görülməsi
**LOT 2.** Göyçay şəhərində asfalt örtüyünün əsaslı təmiri işlərinin görülməsi
**LOT 3.** Göyçay şəhərində mənzillərin təmiri işlərinin görülməsi
**LOT 4.** Göyçay Rayon İcra Hakimiyyətinin sair xərclər üzrə işlərin görülməsi

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər hər LOT üzrə 150 manat məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Göyçay rayonu, M.Ə.Rəsulzadə küçəsi, 130 (Əlaqələndirici şəxs: Kərimov Kamran İlqar oğlu, telefon: (051) 408-76-76) ünvanından ala bilərlər.

**VÖEN: 6000043011**
**N/N: 2511331**
**Dövlət Xəzinədarlıq Agentliyi**
**VÖEN: 1401555071**
**Kod: 210005**
**M/H: AZ41NABZ01360100000000003944**
**S.W.I.F.T. BIK CREAZ22**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:
- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçıların müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;*
- *digər sənədlər.*

Sənədlər Azərbaycan dilində 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır.

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank zəmanəti istisna olmaqla) 18 mart 2019-cu il saat 15:00-a qədər, tender təklifi və bank zəmanətini isə möhürlənmiş, ikiqat zərfdə 01 aprel 2019-cu il saat 15:00-a qədər Göyçay rayonu M.Ə.Rəsulzadə küçəsi 130 ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır. İddiaçıların təklif zərfləri 03 aprel 2019-cu il saat 11:00-da yuxarıda qeyd olunan ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

## Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti Şamaxı Suvarma Sistemləri İdarəsi
### *açıq tender elan edir*

**Tender 1(bir) LOT üzrə keçirilir.**
Maddələr üzrə 1. 221320 ehtiyat hissələri
2. 221320 inşaat materialları
3. 223200 ehtiyat hissələri

Tender iştirakçılarına təklif edilir ki, "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq göstərilən LOT üzrə öz tender təkliflərini möhürlənmiş, ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər. Tender təkliflərinin qiymətləndirilməsi və müqayisə edilməsi bal sistemi vasitəsilə həyata keçiriləcəkdir.

İştirak haqqı LOT üzrə 120 (bir yüz iyirmi) manat ödənilməlidir.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə aşağıdakı iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş tenderin əsas şərtlər toplusunu Şamaxı rayonu, Dədə Qorqud küçəsi ünvanından ala bilərlər.

Əlaqələndirici şəxs: Əlixan Babayev
Əlaqə tel: 051 578-76-56
**Təşkilat: Şamaxı Suvarma Sistemləri İdarəsi**
**VÖEN: 8400088001**
**Bank: DXA**
**Kodu: 210005**
**VÖEN: 1401555071**
**Müxbir hesabı: 85 NABZ01336010000003003944**
**S.W.I.F.T.BIK: CTRE AZ 22**
**H/h: AZ14CTRE00000000000002352701**
**Müəssisə təsnifat kodu: 142319**
**Büdcə səviyyə kodu: 3**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:
- *müəssisənin nizamnaməsi;*
- *vergi orqanından borcu olub-olmaması barədə arayış;*
- *DSMF-dən borcu olub-olmaması barədə arayış;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında hesabatın surəti;*
- *bank arayışı, rekvizitlərlə birlikdə;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tenderdə təklif təminatı (zərflərin açıldığı tarixdən ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi qiymətinin 1 (bir) faizi həcmində (təklifin təminatı) bank zəmanəti (zərflərin açıldığı gündən qüvvədə olmalıdır).*

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri 02 aprel 2019-cu il saat 17:00-a qədər təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Təklif zərfləri 03 aprel 2019-cu il tarixdə saat 11:00-da yuxarıda qeyd olunan ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

Tenderdə iştirak haqqı heç bir halda geri qaytarılmayacaq.

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

"Bakı Metropoliteni" QSC tərəfindən 16 yanvar 2019-cu il tarixdə LOT-1 **"Bakmil" stansiyasının vestibülünün damında "A", "B" və "V" oxları arasında ferma tipli metal örtüyün qurulması işlərinin satın alınması** məqsədilə açıq tender üsulu ilə keçirilən müsabiqədə tenderin əsas şərtlər toplusunun tələblərini və qiymətləndirmənin nəticələrini nəzərə alaraq, tenderdə iştirak etmiş şirkətlər arasında **"Bakı Mexaniki Təmir" ATSC** ƏDV daxil 115779.53 (yüz on beş min yeddi yüz yetmiş doqquz manat 53 qəpik) manat məbləği ilə Tender komissiyasının qərarı ilə bu LOT üzrə qalib elan olunmuşdur.

Qalib gəlmiş təşkilat ilə müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikasının Energetika Nazirliyi tərəfindən 07 dekabr 2018-ci il tarixdə keçirilmiş "Energetika sektorunda bazar münasibətlərinin və bazar subyektlərinin formalaşdırılmasına yönəldilmiş hərtərəfli islahatların aparılmasına dair qanunvericilik bazasının hazırlanması" işlərinin satın alınmasına dair açıq tenderdə "Prima Consulting" MMC qalib elan edilmiş və qalib təşkilatla müvafiq satınalma müqaviləsi bağlanmışdır.

***Tender komissiyası***

### *Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası Palatanın foyesində məlumat lövhəsinin hazırlanmasının və dizayn işlərinin görülməsinin satın alınması məqsədilə kotirovka sorğusunun nəticələri barədə*
## B İ L D İ R İ Ş

Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası tərəfindən 25.12.2018-ci il tarixdə keçirilmiş "Palatanın foyesində məlumat lövhəsinin hazırlanması və dizayn işlərinin görülməsi" üzrə kotirovka sorğusu üsulu ilə satın alınmasına dair müsabiqədə "Vitam" MMC ƏDV daxil olmaqla 11.115,60 (on bir min bir yüz on beş manat 60 qəpik) manat məbləği ilə qalib elan olunmuşdur və qalib gəlmiş təşkilatla 06 fevral 2019-cu il tarixdə müvafiq satınalma müqaviləsi imzalanmışdır.

Palata sorğuda iştirak etmiş digər şirkətlərə təşəkkür edir və fəaliyyətlərində uğurlar arzulayır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Lənkəran Dövlət Universitetinin "Azərbaycan" qəzetinin 04.12.2018-ci il tarixli 273 (8000), 18.12.2018-ci il tarixli 285 (8012) və 15.01.2019-cu il tarixli 10 (8033) nömrəli saylarında dərc olunmuş LOT-1.1 saylı tədris korpusunda digər tikililərin inşası işləri üzrə ilkin sənədlərin təqdim olunması 19 fevral 2019-cu il saat 17:00-a qədər, tender təklifləri və bank təminatı sənədlərinin təqdim olunması 28 fevral 2019-cu il saat 17:00-a qədər, zərflərin açılma vaxtı isə 01 mart 2019-cu il saat 15:00-a qədər uzadılır.

**Əlaqələndirici şəxs: Alxasov Samir Müseyib oğlu, tel: (025) 255 14 80. Ünvan: AZ 4200, Lənkəran şəhəri, H.Aslanov xiyabanı-50. Faks: (025) 255 27 86; www.lsu.edu.az: office@lsu.edu.az**

***Tender komissiyası***

# Beynəlxalq aləm

## Rusiya ABŞ-ı OYRM-i pozan raketləri məhv etməyə çağırır

Rusiya Müdafiə Nazirliyi ABŞ-ı uzun illər ərzində ortamənzilli və yaxınmənzilli raketlər haqqında müqaviləni (OYRM) pozmaqda ittiham etmişdir. Bu barədə TASS agentliyi xəbər verir.



Nazirliyin rəsmi nümayəndəsi, general-mayor İqor Konaşenkov bildirmişdir ki, Vaşinqton faktiki olaraq sazişlə qadağan edilmiş silahların istehsalı üçün şərait yaratmışdır. Bununla əlaqədar Rusiya Müdafiə Nazirliyi ABŞ-ı Vaşinqtonun sazişdən çıxması ilə bağlı elan etdiyi müddətdə münaqişəyə tamamilə riayət etməyə çağırmışdır. Konaşenkov izah etmişdir ki, bu məqsədlə Pentaqon "Tomahawk" qanadlı raketlərinin buraxılması üçün hazırlanmış və quruda yerləşdirilmiş universal Mk-41 qurğularını məhv etməlidir. Bundan əlavə, Moskva hesab edir ki, ABŞ-ın zərbə potensialına malik pilotsuz uçuş aparatları və hava hücumundan müdafiə sistemlərinin testləşdirilməsində istifadə olunan ortamənzilli və yaxınmənzilli ballistik raketləri imitasiya edən hədəf-raketlər OYRM-nin qadağası altına düşür.

Xatırladaq ki, fevralın 1-də Vaşinqton Moskvanı ABŞ-ın OYRM-də iştirakını dayandırması barədə rəsmən xəbərdar etmişdir. Buna cavab olaraq Rusiya da sazişdə iştirakını dayandırmışdır.

## Fransa İtaliyadakı səfirini geri çağırdı



Fransa İtaliyadakı səfirini məsləhətləşmə aparmaq üçün geri çağırmışdır. Fransa Xarici İşlər Nazirliyinin bəyanatında vurğulanır ki, rəsmi Romanın son hərəkətləri "qəbulolunmaz təxribatdır" və "demokratik və azad seçilmiş hökumətlər arasında hörmətin çatışmazlığını nümayiş etdirir".

Belə bir qərarın verilməsinə səbəb İtaliya Baş nazirinin müavini, iqtisadi inkişaf, əmək və sosial siyasət naziri Luici Di Mayonun Fransanın "sarı jiletlər" hərəkatının nümayəndələri ilə görüşü olmuşdur. Nazir "sarı jiletlər"ə dəstəyini ifadə etmişdir.

Di Mayo Fransa xarici siyasət idarəsinin qərarına münasibət bildirərkən qeyd etmişdir ki, hərəkatın nümayəndələri ilə keçirdiyi görüş qanunidir. "Mənim "5 ulduz" hərəkatının lideri kimi "sarı jiletlər"in nümayəndələri ilə görüşüm tamamilə legitimdir. Fransızları təmsil edən müxtəlif siyasi qüvvələrlə dialoq aparılmasında qanunsuz heç nə yoxdur" deyə siyasətçi bildirmişdir.

Nazir izah etmişdir ki, "Makronun "Respublika, irəli!" partiyası İtaliyanın müxalifətçi Demokrat Partiyasının Avropa səviyyəsində müttəfiqi kimi çıxış edir. "5 ulduz" hərəkatı da Fransa hökumətinə müxalifətdə olan siyasi qüvvə ilə görüşmüşdür.



## Avstraliya parlamentinin kompüter şəbəkəsinə haker hücumu

Avstraliyada hakerlər parlamentin kompüter şəbəkəsinə hücum etmişlər. Bu barədə SBS telekanalı xəbər verir.

Parlamentin rəhbərliyi bildirmişdir ki, şəbəkəyə daxil olmaq cəhdləri aşkar edildikdən sonra zəruri təhlükəsizlik prosedurları həyata keçirilmişdir.

Hazırda hakerlər tərəfindən hansısa informasiyanın, yaxud senatorların və aparat əməkdaşlarının şəxsi məlumatlarının ələ keçirilib-keçirilmədiyi bilinmir. Həmçinin kiberhücumun məqsədinin hansısa parlament, siyasi, yaxud seçki proseslərinə təsir etmək niyyəti olub-olmadığı hələ ki müəyyənləşdirilməmişdir.

Hadisənin təhqiqi ilə Avstraliya federal polisi və Milli Kibertəhlükəsizlik Agentliyi məşğul olur.

## Ermənistan silahlı qüvvələrinin bölmələri sutka ərzində atəşkəs rejimini 28 dəfə pozub

Ermənistan silahlı qüvvələrinin bölmələri sutka ərzində cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə atəşkəs rejimini 28 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistan Respublikası Noyemberyan rayonunun Şavarşavan kəndində və İcevan rayonu ərazisindəki adsız yüksəkliklərdə, Berd rayonunun Çinari kəndində yerləşən mövqelərdən Azərbaycan Respublikasının Qazax rayonunun Quşçu Ayrım və Qızılhacılı kəndlərində, Tovuz rayonunun Ağbulaq və Muncuqlu kəndlərində yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Çiləbürt, Yarımca, Ağdam rayonunun Nəmirli, Şıxlar, Cəvahirli, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər və Ağdam rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqelərinə atəş açılıb.

## ALLAH RƏHMƏT ELƏSİN!

Milli Məclisin deputatı Bəxtiyar Sadıqov Ağabəy Əsgərova bacısı
**PƏRİXANIM MƏMMƏDOVANIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

"Azərbaycan" qəzeti redaksiyasının kollektivi "Azərbaycan" nəşriyyatının baş direktoru Ağabəy Əsgərova bacısı
**PƏRİXANIM MƏMMƏDOVANIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

"Azərbaycan" nəşriyyatının kollektivi Ağabəy Əsgərova bacısı
**PƏRİXANIM MƏMMƏDOVANIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Milli Məclisin Elm və təhsil komitəsinin sədri, akademik İsa Həbibbəyli, komitənin üzvləri və əməkdaşları Milli Məclisin deputatı İmamverdi İsmayılova əzizi
**TAMARA XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

"Aqrarkredit" Qapalı Səhmdar Cəmiyyəti Bank olmayan Kredit Təşkilatının İdarə Heyəti və kollektivi Gəncə şəhəri Nizami Rayon Məhkəməsinin sədri Rasim Kazımova atası
**SARI KAZIMOVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının rəhbərliyi, komissiyanın üzvləri və katibliyin əməkdaşları 14 saylı Xəzər seçki dairəsi dairə seçki komissiyasının sədri İmran Qəmbərova qardaşı
**EMİN QƏMBƏROVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev Milli Məclisin deputatı İmamverdi İsmayılova əzizi
**TAMARA XANIMIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Milli Məclisin deputatı, Azərbaycan Qızıl Aypara Cəmiyyətinin Prezidenti Novruzəli Aslanov Milli Məclisin deputatı İmamverdi İsmayılova qayınanası
**TAMARA XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Ali Məhkəməsinin kollektivi Gəncə şəhəri Nizami Rayon Məhkəməsinin sədri Rasim Kazımova atası
**SARI KAZIMOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

"Aqrarkredit" Qapalı Səhmdar Cəmiyyəti Bank olmayan Kredit Təşkilatının İdarə Heyəti və kollektivi Milli Məclisin deputatı İmamverdi İsmayılova əzizi
**TAMARA XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Milli Məclisin komissiya sədri, respublika Ağsaqqallar Şurasının sədri Fəttah Heydərov Milli Məclisin deputatı İmamverdi İsmayılova əzizi
**TAMARA XANIMIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı və komitənin kollektivi Milli Məclisin deputatı İmamverdi İsmayılova əzizi
**TAMARA XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Bakı Ali Neft Məktəbinin rektoru Elmar Qasımov və professor-müəllim heyəti Milli Məclisin deputatı İmamverdi İsmayılova əzizi
**TAMARA XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəhbərliyi və kollektivi Milli Məclisin deputatı İmamverdi İsmayılova əzizi
**TAMARA XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Gəncə şəhəri Nizami Rayon Məhkəməsinin kollektivi Gəncə şəhəri Nizami Rayon Məhkəməsinin sədri Rasim Kazımova atası
**SARI KAZIMOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az_reklam@azeronline.com
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1
"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet
Tiraj 8361
Sifariş 395
Qiyməti 40 qəpik